

Nazim Əhmədli

silib dərdin tozunu,
səpdim, yollar uzunu;
alnımdakı yazını,
kim tələsik oxudu;

ocaq söndü, köz atdım,
ulduzlara söz atdım;
əllərimi uzatdım,
göy üzünə toxundu;

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing
7.99 ₼
2 001185 894635

Nazim Əhmədli Unutduğum göy üzü

QN QANUN NƏŞRİYYATI

# Unutduğum göy üzü

Nazim Əhmədli

/ şeirlər /

**Nazim Əhmədli**

# *Unutduğum göy üzü*

/şeirlər/

**Nazim  Əhmədli (Nazim Şamil oğlu Əhmədli)**
**UNUTDUĞUM GÖY ÜZÜ**
Bakı, QANUN nəşriyyatı, 2019, 144 səh.

Redaktor: Rəhilə Əhmədli
Karrektor: Təyyar Əliyev

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-740-9

© Nazim Əhmədli, 2019
© QANUN nəşriyyatı, 2019

On söz

# Göy üzünün yaddaşı...

Ədəbiyyatda müəyyən tendensiyalarla yanaşı elə bir üslub, bir meyl də var ki, öz sakit axarı ilə haysız-küysüz, ədəbi anomaliyalara uymadan özünəməxsus ədəbi işini görür. Azərbaycan ədəbiyyatında bu cür tendensiya axarında olan, «poetik reklam roliklərindən» uzaq gəzən, hətta tənqidin nəzərində belə, arada qalan, lakin öz zəhməti ilə ədəbiyyata, ədəbi prosesə xidmət edən, iddiasız ədəbi xətt mövcuddur ki, bunlardan biri, şair Nazim Əhmədlinin poetik yaradıcılığıdır.

Nazim Əhmədli ədəbiyyat aləminə daxil olduğu vaxtdan həm yaradıcılığı, həm də əmək fəaliyyəti ilə öz gücünü istedadı əhatəsində ədəbiyyata xidmətə yönəltmişdir. Onun hardasa gizlənmiş yenilik axtarışlarının cücərtilərini sezmişdim. Sonra bu cəhət onun yaradıcılığında getdikcə qüvvətləndi, xüsusən son illərdə «Azərbaycan», «Ulduz» jurnallarında «525-ci qəzetdə», «Ədəbiyyat qəzetində», «Yeni Azərbaycan» qəzetində və digər mətbuat orqanlarında çap etdirdiyi silsilə şerlərində bu axtarışların və yeniliyin konkret təzahürlərini aşkar müşahidə etdim və belə bir orijinal şairin tənqidin diqqətindən kənarda qalmasına heyfsləndim...

Bu yaxınlarda əlimə Nazim Əhmədlinin «Unutduğum göy üzü» adlı yeni kitabının əlyazmaları keçdi və onun

yaradıcılığı haqqında özü demiş «Sözə bükülmüş şair ürəyinin» bəzi məqamları və xüsusiyyətləri barəsində, bir daha, yazmaq qənaətinə gəldim...

Nədənsə, indiki çağda yaxşı poeziyanın yiyəsi yoxdur və ya ona yiyə çıxan da tapılmır. Sürtük, qapı pəncərədən xəzri, gilavar tozanağı ilə şeir mehrabına dürtülənlər, parabaz-şeirbazlar daha çox üzdədirlər və görünür üzdürdülər ki, üzdədirlər. Nazim Əhmədli özü hamını təbliğ etsə də və çoxdan ədəbi mühitin içində olsa da, bu mühitin rəğbətini qazansa da öz «küncünə» sığınıb şerini – özü də yaxşı şerini yazır.

Bəri başdan deyim ki, Nazim Əhmədlinin şerlərinin yanından elə-belə ötüb keçmək mümkün deyildir. Onun hər bəndi oxucunu tutub saxlayır, diqqəti çəkir, həndəvərində dolandırır, misrayanı qeydsiz, «ptiçkasız» ötüşmək olmur.

Çünki onun yaradıcılığında ənənəvi şerin, xüsusən gəraylıların, sivil, müasir məzmunu, obrazları ardıcıl, arası kəsməz, ritmik döyüntüyə çevrilir. Onun şerlərində ənənəvi şerin parametrlərində yeni poetik düşüncə tərzi, fikrin obrazlı dönüşləri, astanaları, reallıqdan qeyri-reallığa və geriyə dönüş, ruhun sözdə, mənada, ritmdə əksi, qlobal obraza, təşbehə meyl (adi təşbehə deyil – fikrin təşbehini, obrazını yaradır, fikir təşbehləşir və adi fikrin elə ifadə tərzin axtarıb tapır ki, qeyri-adi və tamam təzə fikir alınır) aşkar üslub məqam kimi görsənir.

yaz gəldi, sular qaynadı,
göydə ulduzlar oynadı;
dünya bir yarpaq boydadı,
biz də, qonmuşuq üstünə;

Gəraylı janrı Nazimin qələmində ilkin saflığını qorumaqla, öz yeni deyim tərzlərini, təzə, təravətli, müasir hissi-obrazlı çalarlarını da qazanmış olur. Nazim gəraylıda heç kimi yamsılamır, imitasiya etmir, sadəcə bu janrın ritmik ladına akkompanent tutur, ona həmahəng olan yeni havacat yarada bilir, oxucusunu söz yağışının altına çəkir.

kimdi, mənim həyanım,
tez cağırın, oyanım;
Tanrı quran dünyanın,
divarından su damır;

bulud çalma-çalmadı,
ayrılıqlar solmadı;
daha bir şey qalmadı,
sular yuyur, odamı;

bu Yer özü nə sində,
nə saatda, nə gündə;
gözümüzün önündə,
qoca dağlar budanır;

Nazim Əhmədlinin gəraylılarını oxuyanda hiss etmirsən ki, gəraylı oxuyursan. Onda obrazların yeniliyi, hissin, ovqatın müasirliyi o qədər orijinal təsir bağışlayır ki, elə bil qafiyəli sərbəst oxuyursan. Nazim Əhmədlinin qələmi, ilhamı, söz duyumu bu cəhətdən, doğrudan da sərbəstdir, hər şeydən azaddır, müstəqildir.

belə hara gedirsən,
sən, uçuna-uçuna;
bax, əlimi uzatsam,
Ay düşəcək, ovcuma;

payız tökür, varını,
yarpaq-yarpaq sarını;
daha, qışın qarını,
dərd eləmə, saçına;

Onun gəraylıları bütövdür, tamdır. Hissin, duyğunun, ruh aləminin, bitgin, lirik hekayətidir. Başlayır və qurtarır. Şeri bölmək, ayırmaq, bəndləmək olmur. Bu cəhətdən Nazimin şerlərinin strukturu, qrafik düzümü, orfoqrafik qaydaları da üslubi məqamın axarına düşür.

Bu deklarativ, poetik misra deyildir, bədii estetik xətdir, həqiqətdir! Nazim Əhmədli təpədən-dırnağa sözdür, duyğulu, bədii, poetik söz! Onun ürəyi həqiqətən də söz arasına bükülüb və bizim oxucularımız hələ ondan çox-çox poetik söz umacaq. Sənin poetik duyğuların həm yer üzünün, həm göy üzünün yaddaşıdır, Nazim Əhmədli.

**Qurban Bayramov,**
*tənqidçi-ədəbiyyatşünas, doktor-professor,*
*«Fədakar alim» və «Elm fədaisi» diplomantı,*
*«Səməd Vurğun mükafatı» laureatı,*
*1984-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*02.10.2019.*

# şeirlər

# anam

anam köçəndən bəri,
gözüm yuxu yatmayıb;
hər gün məktub yazmışam,
biri gedib çatmayıb;

nə yatdım, nə oyanam,
çağırsam, dərd oyanar;
çıxıb gedəndə, anam
heç məni oyatmayıb;

anam bir dərd vətəni,
hanı, dərdin itəni;
o payızdan ötəni,
gülüşü boy atmayıb;

ruhum oyaqdı, deyib,
dərdim qayıqdı, deyib;
anam, bayatı deyib,
saçını boyatmayıb;

bu dünya bir qalacıq,
gəlib gedən yol, açıq;
anam, quş olub, uçub,
bir daha qayıtmayıb.

## adam kədərdən yıxılır

hərdən elə bil, ürəyim,
vurduğu yerdən yıxılır;
çığrışır, qara saclarım,
vər düşür, vərdən yıxılır;

hər şey mənə acıq gəlir,
ağrı-acı qaçıb gəlir;
dan üzünü açıb gəlir,
gecə səhərdən yıxılır;

ürəyinə qəm düşəndə,
bircə misra kəm düşəndə;
əlindən qələm düşəndə,
şair şeirdən yıxılır;

göz yaşı harda kiriyir,
qos-qoca buzlar əriyir;
əli-ayağı səyriyir,
fələk də, hərdən yıxılır;

payız gəlir, sazaq düşür,
yal-yamaca bozax düşür;
adam eldən uzaq düşür,
xeyirdən, şərdən yıxılır.

# adımı unut

adımı unut, ah çək,
mənə, bir ah adı qoy;
axşam, gecə, günorta,
ya da, sabah adı qoy;

gör, ürəyin nə deyir,
nə deyir, sənə deyir;
qəzəl, müxəmməs, şeir,
ya da seygah adı qoy;

pıçılda, için-için,
dilindən şərbət içim;
gəzim, qəlbinin için,
mənə, səyyah adı qoy;

tonqalı çat üstümə,
dərdi oyat, üstümə;
günahı at, üstümə,
mənə, günah adı qoy;

nağıl dili yeyindi,
deyirlər, dərd üyündü;
başıma tac geyindir,
sonra, padşah adı qoy;

bir məktub yaz, at göyə,
əlini uzat göyə;
gedək, qayıdaq göyə,
mənə Allah adı qoy.

# ağlama, könlüm qırılar

onsuzda bilirəm, səni,
tanrı mənə yar eləməz;
bir də, onu bilirəm ki,
səni mənsiz var eləməz;

o baxışdan kim yorular,
qısqanar, qoca qarılar;
ağlama, könlüm qırılar,
gözəl ahu-zar eləməz;

günahdı, gülü dərməsəm,
dərib saçına hörməsəm;
üzündə həsrət görməsəm,
ürəyim qubar eləməz;

ruhum dönüb hardan gələr,
xoşca xəbər yardan gələr;
sənsiz min bahar da gələr,
könlümü bahar eləməz;

mən düşərəm sorağına,
dünyanın o qırağına;
gəlib düşər ayağına,
dəli könlüm, ar eləməz.

# alnımın yazı yerində

bulud başımdan yuxarı,
dünya yaşımdan yuxarı;
nə var, qaşımdan yuxarı,
alnımın yazı yerində;

nə olursa, əzəl olur,
yarpaq sonda xəzəl olur;
gözəl, onda gözəl olur,
işvəsi, nazı yerində;

hər şey iç-içə qurulub,
gündüz, həm gecə qurulub;
dünya beləcə qurulub,
payızı, yazı yerində;

niyə yaşıldı, köynəyim,
gözümə düşmür, eynəyim;
içimdə həsrət göynəyir,
könlümün özü yerində;

həsrətim at üstündədi,
dərdim boyat üstündədi;
ocağım od üstündədi,
kösöyün, közün yerində;

yarpaqlar bükülür, yenə,
payıza çəkilir, yenə;
köçümüz tökülür yenə,
yolların uzun yerində;

dən düşür, torpaq göyərir,
saçım ağ-appaq göyərir;
bir yaşıl yarpaq göyərir,
yuxumun yozum yerində.

# ayrılıq bir dəli sudu

könül, bu nə haldı, düşdüm,
elə bil, qəm içir məni;
ruhumu götürüb gedir,
qürbət elə əkir, məni;

burdan o yana yol varmı,
adamsız da, yol olarmı;
payız çatıb qollarımı,
bir yarpağa bükür, məni;

bu yol kimin, yoxuş kimin,
alnımdakı naxış kimin;
fələk soyuq yağış kimi,
buludlardan tökür məni;

ötən dərdin bir anıyam,
xatirələr dumanıyam;
göy üzünün adamıyam,
göy özünə çəkir, məni;

dedilər ki, ömür budu,
içimi göz yaşı yudu;
ayrılıq bir dəli sudu,
tut əlimdən, keçir məni.

# belə bir ömür yaşadıq

belə bir ömür yaşadıq,
dərd yavaş-yavaş qarıdı;
nə yaz, nə payız bilindi,
dağ başında qış qarıdı;

bu qançır at dəyişmədi,
əlimdən qamçı düşmədi;
yerə bir damcı düşmədi,
buludda yağış qarıdı;

bu ağrı-acı bəs, nədi,
üstümə kimlər əsnədi;
anam dağları səslədi,
yanağında yaş qarıdı;

acıdı dilim, çəkirəm,
yanıram, külün çəkirəm;
min ildi, zülüm çəkirəm,
alnımda qırış qarıdı;

oxum, bir kaman yoludu,
ruhum, bir zaman yoludu;
göy üzü daşnan doludu,
göy üzündə daş qarıdı;

cığırlar, yollar özlədi,
bu dərd canımı közlədi;
bulaqlar bizi gözlədi,
dilində qarğış qarıdı.

# bir qara yuxu içində

bir qara yuxu içində,
yorğun gözlərim səyriyir;
qalxıb ayıla bilmirəm,
üstümə dağlar yeriyir;

deyən unutdum, adımı,
çağır, ruhum oyaqdımı;
yağış islatmır adamı,
göydə buludlar çürüyür;

ağdı, ya qara, bilmirəm,
bir daşdı, qıra bilmirəm;
gedib çatdıra bilmirəm,
ordakı dağlar əriyir;

nə var ki, alın yazımda,
fələklər kimin yasında;
boz dağların arasında,
küləklər məni sürüyür;

orda, bir ağ saçlı mələk,
göz yaşı ağ-appaq çiçək;
əlində bir taxta kürək,
ötən dərdləri kürüyür.

# bir az ürəyimdə qal

gəl, səni ürəyimin
köynəyindən keçirim;
bir az, ürəyimdə qal,
gör, mən nələr çəkirəm;

qaradı, ağdı, yuxum,
hələ oyaqdı, yuxum;
gecələr yoxdu, yuxum,
ulduzları sökürəm;

göydə bulud ləliyir,
damcı-damcı çiləyir;
fələk tumu ələyir,
mən də, bostan əkirəm;

hanı, yolun axırı,
geri qaytar, naxırı;
payız qonaq çağırır,
yarpaqları bükürəm;

mən, dərd daşıdım, burda,
dağlar yaşıdım, burda;
bəsdi, yaşadım burda,
uzaqlara köçürəm;

bilmirəm, nə yazmışam,
misralarda azmışam;
burda bir yer qazmışam,
fələyə ev tikirəm.

# hörüyünü qoşa bağla

bir azdan yola çıxıram,
qayıt, yığışdır, odamı;
sən yer üzünün mələyi,
mən göy üzünün adamı;

dərdi deyib, səri deyib,
göyü deyib, yeri deyib;
mənə dərd şairi deyib,
göy üzü verib butamı;

gəl, sərək payızı günə,
yarpaqlar ayılsın, günə;
orda qalıb ağzıgünə,
ruhumun bir uçuq damı;

unutmuşam, köy üzümü,
sındırdım, ögey üzümü;
çox dolaşdım, göy üzünü,
hardadı, ruhu atamın;

gözündəki yaşa baxma,
hörüyünü qoşa bağla;
ürəyini daşa bağla,
ağlama, mən qayıdanı.

# deyən Tanrı da oyaqdı

hərdən qayıdır canıma,
bir sınıq ağrı, gecələr;
ulduzlar göydən perikib,
hayana axır, gecələr;

sorağı gəlmir, eləmir,
ruhum səs-səmir eləmir;
gözlərim çimir eləmir,
könlüm darıxır, gecələr;

qaçdım, ağrının küründən,
yıxıldım, dərdin birindən;
yuxumun bulud yerindən,
elə qar yağır, gecələr;

kimsə məni qaralıyıb,
dağ başında qar allıyıb;
göy üzünü aralıyıb,
fələklər baxır, gecələr;

yaddaşım, yadım daş kimi,
dərdi boyadım, daş kimi;
görsən ki, yatdım, daş kimi,
gəl, məni çağır, gecələr;

buludlar papaq-papaqdı,
göydən yenə ulduz axdı;
deyən Tanrı da oyaqdı,
bu son, bu axır gecələr.

# dünyanın yorğun adamı

mənəm, elə tək özüməm,
könlümün yaxın adamı;
yolu, cığırı bağlanan,
bir uçuq dağın adamı;

solub gedib, bət-bənizim,
nəyi qalıb, mən sənsizin;
bir adanın, bir dənizin,
bir xoş bulağın adamı;

nədən yaş olub, yasdığım,
donub, daş olub yastığım;
içində şeir yazdığım,
bir ağ varağın adamı;

ayrılıq yeyir, qapımı,
küləklər əyir, qapımı;
payızdan döyür qapımı,
qarın, sazağın adamı;

nə kövşənim, örüşüm var,
nə əyişim-üyüşüm var;
axı, burda nə işim var,
mən, çox uzağın adamı;

həm acı, həm kür oldum, mən,
ruhuma əsir oldum, mən;
yol uzunu yoruldum, mən
dünyanın yorğun adamı.

# əllərim od tutub yanır

əllərim od tutub yanır,
əlimi neynirsən, axı;
dilim yaman acı dadır,
dilimi neynirsən, axı;

yarpağam, otam, üz məni,
qara telinə düz məni;
içim yandırmır özgəni,
çölümü neynirsən, axı;

fələklər kimi yaxırlar;
küsüb mələklər, ahular,
toxunma, külüm dağılar,
külümü neynirsən, axı;

dağların gülün gətirrəm,
süsən-sünbülün gətirrəm;
mən, sənə zülüm gətirrəm,
zülümü neynirsən, axı;

bilmirəm, sən mənim kimim,
saçımda ağ dənim, kimin;
ay gözəlim, mənim kimi,
dəlini neynirsən, axı.

# eşqin dərgahına qul olan könül

eşqin dərgahına qul olan könül,
bir gün yıxılarsan, qul ağrısından;
açılar butalar, çəkilər duman,
düşər çiyinlərin, yol ağrısından;

ruhuma bir dəli nağıl pıçılda,
başıma azacıq ağıl pıçılda;
məni səhralardan çağır, pıçılda,
canımı qutarım, çöl ağrısından;

nədir bu qovğalar, axır nə bilim,
üzümə kim necə baxır, nə bilim;
hərdən topuq çalır, karıxır dilim,
sözüm acı dadır, dil ağrısından;

bu dərdi nə qədər oyum, içimdə,
ölümün, itimin, toyun içində;
dünya çalxalanır, suyun içində,
dağlar əyilibdi, sel ağrısından;

daha nə qalıbdı, bu gələn yaza,
saçımda ağ duman, əlimdə əsa;
bu yol çəkib gedir üzü payıza,
atlar yorulubdu, nal ağrısından;

hanı, qul olduğum eşqin dərgahı,
azıb itən yurdda anamın ahı;
tökmüsən üstümə min-bir günahı,
ağla ağrısından, gül, ağrısından.

# etüdlər

aylar nə tez ötdü, illər dəyişdi,
bir qara qalmadı, telimin üstə;
elə əlləşirəm, sözün içində,
söz də ki, ceyranın belinin üstə;

gün batır, buluda sarı qarışıb,
yarı ağca qalıb, yarı qarışıb;
baxıram, bir ovuc arı darışıb,
dağların bir ağca gülünün üstə;

həsrətim, qubarım uzaq bir ada,
inanma, uzanan yollarım çata;
məni gözlərində atmısan oda
gəlib ağlayarsan, külümün üstə;

tökülür saçımdan, qara yağışlar,
axır günahımı kimsə bağışlar;
yüz ildi, solmayıb incə naxışlar,
nənəm toxuduğu kilimin üstə;

payızda meşələr çənə yazılıb,
həsrəti, qubarı mənə yazılıb;
ömrümüz beş-onca günə yazılıb,
o da ki, fələyin felinin üstə;

hara üz tutursan, axır qəm gəlir,
göydə buluddan da yağır qəm, gəlir;
bu zalım bəşərin ağlı kəm gəlir,
dünya sona gedir, zülümün üstə;

gözümün qorunu sıxacam, bir gün,
ağlımı başıma yığacam, bir gün;
qaçıb bu dünyadan çıxacam, bir gün,
məni öldürərlər, dilimin üstə.

# fələyin sınıq möhürü

hardan yol tapım, dağlara,
ürəyim arzulu qalıb;
atam da, şəkilə dönüb
divardan asılı qalıb;

ağ buludlar dəstə-dəstə,
qulağım bir qərib səsdə;
yoruldum, cığırda, izdə,
yolların uzunu qalıb;

hanı, boz atın yəhəri,
səyridəm, açam səhəri;
fələyin sınıq möhürü,
alnıma basılı qalıb;

yadlar gəlib dərdi, bizi,
yaman günə sərdi bizi;
daş içində dərdimizin,
məzarı qazılı qalıb.

axır gecdi, ta yanmışam,
köz tutub, oda yanmışam;
min yuxudan oyanmışam,
min bir də, yozumu qalıb;

gözümdən axır, acı su,
bəs hanı, dərdin bacısı;
bir ömrün ağrı-acısı,
ovcumda yazılı qalıb.

# gəl gizlicə çıxıb gedək

gəl gizlicə çıxıb gedək,
bağçanızın gül yerinə;
mənə bir şeir bəstələ,
oxuyaq, bülbül yerinə;

göy üzünü kim oxusun,
külək aparsın, yuxusun;
gətir, əllərim toxunsun,
saçının sünbül yerinə;

söz deyim, gülsün, ürəyin,
sözə bükülsün ürəyin;
danışa bilsin ürəyin,
ağzındakı dil yerinə;

bax, ulduzlar qönçə-qönçə,
gözün göyçək, belin incə;
gəl, canımı al, bu gecə
apar, əzrayıl yerinə.

# güzgüdə yaşayan adam

güzgüdən baxırsan mənə,
kimsən, mənə oxşar adam;
səsin, səmirin də çıxmır,
içində danışan adam;

mən hər güzgüyə baxanda,
sənin üzünü görürəm;
bəlkə məni qara basır,
özüm, özümü görürəm;

hardan girmisən, güzgüyə
məni güdürsən, elə bil;
üzümü yana çevirrəm,
çıxıb gedirsən, elə bil;

bəlkə, bir ayrı dünyadı,
güzgünün o, sən tərəfi;
güzgüdə niyə görünmür,
əlimin əsən tərəfi;

sənin işin-gücün, varmı
maaş da almırsan, deyən;
evin, eşiyin də yoxdu,
güzgüdə qalırsan, deyən;

bəlkə, adını deyəsən;
mənə çox oxşayan adam;
nə vaxt çıxırsan, güzgüdən,
güzgüdə yaşayan adam.

# hələ nə gedib ömürdən

hələ nə gedib, ömürdən,
nə ağıl, nə huş qalıbdı;
başımı atıb yatmışam,
payız gedib, qış qalıbdı;

bilmədim, bu yer haradı,
gəl, bu cığırda sür atı;
Həmzə apardı, Qır atı,
yerində bayquş qalıbdı;

boz qayada qurdum hanı,
yerim hanı, yurdum hanı;
içimdəki dərdim hanı,
kipriyimdə yaş qalıbdı;

daş atır, hər yoldan ötən
dərd bükülür, çətən-çətən;
min ildi, sökülür vətən,
nə torpaq, nə daş qalıbdı;

nə gedibsə, haqdan gedib,
vardan gedib, yoxdan gedib;
lələ köçüb, çoxdan gedib,
yurd-yuvası boş qalıbdı;

dağ lalıyır, daş lalıyır;
yay lalıyır, qış lalıyır;
göy üzündə quş lalıyır,
dərd içib, sərxoş qalıbdı.

# həsrətin uzaq yeri

hələ, yaxşıdı ürəyim,
bir azacıq sağ yeri var;
baxışın, yaz yağışıdı,
könlümün quraq yeri var;

durum, tərpənim, yüyürüm,
söz bükdərim, söz əyirim;
hələ bitməyib şeirim,
dəftərimin ağ yeri var;

dağların çalma yerində,
duman dolanan yerində;
üzünün alma yerində,
öpməyə, dodaq yeri var;

baxma, ürəyim uçunur,
qaldır üzündən, saçını;
çəkdiyim ağrı-acının,
dayanıb, durmaq yeri var;

nə var, daşın arasında,
yayın, qışın arasında;
gözlə qaşın arasında,
ikicə, barmaq yeri var;

könlümün kür tərəfində,
dərdin əsir tərəfində;
hər yolun bir tərəfində,
qar yeri, sazaq yeri var;

dağlar uzaqda lalıyır,
ruhumu bir dərd talıyır;
hər gün, həsrət balalıyır,
həsrətin uzaq yeri var.

# könlüm

bilmirəm, Tanrım, bilmirəm,
nədən yoğurdun, könlümü;
qarağac qabığı kimi,
ütdün, qovurdun, könlümü;

payız sarısın göndərib,
sarı ağrımı döndərib;
bir yurd ağrısı göndərib
dərdlə doyurdun, könlümü;

saçım qaraydı, kömürdən,
qaçırdım, səsdən, səmirdən;
min illər ötdü, ömürdən,
göyə sovurdum, könlümü;

kim göy üzündə Ay qurub,
dəli könlümü Ay qırıb;
hərdən, üstünə hayqırıb,
bezib qovurdum, könlümü;

xanam, həm də xanə mənəm,
qəməm, həm qəmxanə mənəm;
o dəli, divanə mənəm,
harda ovudum, könlümü.

# kim yatıbdı, kim oyaq

yatmadığım bir gecə,
unutduğum Ay üzü;
bu gecənin içindən,
kimdi, çağıran bizi;

payız niyə sarıdı,
bulud göydə qarıdı;
hələ, gecə yarıdı,
oyanmayıb, göy üzü;

gedim, hardan keçim, mən,
buludların köçündən;
bu gecənin içindən,
baxır, qürbətin gözü;

kim yatıbdı, kim oyaq,
ruhumuzu oyadaq;
pəncərədən göyə bax,
solub, bəti-bənizi;

baxırsan, maddım-maddım,
bəs nədi, mənim adım;
içimdə yanır, odum,
hələ sönməyib közü;

gəl, indi yığış, gedək,
yağmamış yağış, gedək,
yanından yavaş ötək,
oyatmayaq, dənizi.

# könül qapılarım açıq qalıbdı

könül qapılarım açıq qalıbdı,
hara çınqı düşür, qoru mənimdi;
qapını kəsdirən qara qışın da,
çovğunu, boranı, qarı mənimdi;

necə gedim, itən yurda, bilmirəm,
dərd yükü ağırdı, darta bilmirəm;
ruhum veyillənir harda, bilmirəm,
həsrətin, qubarın barı mənimdi;

bilmirəm nədəndi, dərdim-azarım,
harda tüstülənir qara məzarım;
elə hey payıza düşür güzarım,
payız bağlarının sarı mənimdi;

bir az ərköyünəm, bir az da bədəm,
bir qaynar ürəyəm, bir cılız bədən;
hər sözün-söhbətin bilmirəm nədən
zəhrimarı mənim, çoru mənimdi;

min illər boyunca bir yuva qurdum,
içimdə, çölümdə ağrı qovurdum;
Vətən dediyimiz bu doğma yurdun,
namusu, qeyrəti, arı mənimdi;

min illər öncəki günah yadımda,
yanıb əriyirəm, bir ah odunda;
dünyada nə varsa, günah adında,
yarı fələyindi, yarı mənimdi.

# könül, çox da ah eyləmə

könül çox da ah eyləmə,
o buludun qarı keçər;
ürəyimə səda düşər,
gəlib ahu-zarı keçər;

gedər ağıl-huş, addıyar,
gözümüzdən yaş addıyar;
payız gedər, qış addıyar,
dolanar baharı keçər;

yaman yuxaldır ney məni,
didərgin ruhum eymənir;
gətir, saplıyım iynəni,
ilduzundan darı keçər;

ötən günlər nə saydadı,
dərdim o tay, bu taydadı;
dünya bir gözüm boydadı,
ortasından barı keçər;

çıxdım daşın arasından,
göznən qaşın arasından;
yaynan qışın arasından,
bir dəlisov sarı keçər;

nədir, dünyadan itiyim,
hansı cığırda itdiyim;
bir ömür yoldu, getdiyim,
yarı qalar, yarı keçər.

## hər gün ömür təzələnir

könül, bir dara çıxmışam,
nə yol, nə yoxuş dəyişir;
payızdan dönən üzümü,
nə yaz, nə də qış dəyişir;

kim yolu yola caladı,
hər yer çuxurdu, çaladı;
biri dərdə mübtəladı,
biri də, daş-qaş dəyişir;

bax, fələyin oyununa,
nə yox, gözündən yayına;
ilan girəndə qoynuna,
dost-doğma qardaş dəyişir;

qara bulud yağır, gedir,
dəli çaylar axır, gedir,
cavanlıq darıxır, gedir,
ömür gedir, yaş dəyişir;

yollar hara çözələnir,
sönən ocaq köz eləmir;
hər gün ömür təzələnir,
hər gün, bir naxış dəyişir.

# könül, mən səndən savayı

könül, mən səndən savayı,
kimə açım, ürəyimi;
kimsəyə bağlı qalmayan,
bu şən, açıq ürəyimi;

bir az hayınam, küyünəm,
bilmirəm, nəylə öyünəm;
bir az salamat döyünən,
bir az, uçuq  ürəyimi;

gözlərim qubarı çəkir,
qubarım dağları çəkir;
hər şey, dərdə sarı çəkir,
açıq-saçıq ürəyimi;

ah çəkirəm, ah oynayır,
gah ağlayır, gah oynayır;
dörd yanda günah oynayır,
sıxır, açıq ürəyimi;

mən gələn yollar çürüyür,
üstümə dağlar yeriyir;
yarı qaranlıq bürüyür,
yarı işıq, ürəyimi;

tanrı məni quş eləsin,
dərdi-qəmi daş eləsin;
kimə verim, nuş eləsin,
mən, bu aşiq ürəyimi.

# gəl, mən bir tək səni sevim

gəl, mən bir tək səni sevim,
səndən ayrısı olmasın;
hər gün sənə çiçək dərim,
təkcə, sarısı olmasın;

tonqalı çatım, gecəyə,
həsrəti atım, küçəyə;
gündüzü qatım gecəyə,
ağı, qarası olmasın;

yolları döndərim, sənə,
könlümü göndərim, sənə;
ürəyimi verim, sənə,
doğra, ağrısı olmasın;

biz dərdə acıq verməyək,
sevib, yaraşıq verməyək;
göz verib, işıq verməyək,
biznən arası olmasın;

bu eşqin sorğusu, bəsdi,
acısı, ağrısı bəsdi;
həsrətin yarısı bəsdi,
qalan yarısı, olmasın.

# mənə bir yalan danış

mənə bir yalan danış,
sonra nağıldı, demə;
dağların nəyi qalıb,
dağlar ağırdı, demə;

bu yolda yor-yoxuş var,
hər sevgidə naxış var;
ağ buluddan yağışlar,
qara yağırdı, demə;

kim qalıb, kim yarıyıb,
o qız harda qarıyıb;
çaylaqda su quruyub,
çınqıl axırdı, demə;

bulud hanı, əliyəm,
aralıqda ləliyəm;
mən də, bir az dəliyəm,
mənə ağıllı demə;

söz soruşum, qaçırma,
şirin söz qat, acıma;
qar düşübdü, saçıma.
hələ ağardı, demə;

payız gəldi, haqladı,
küləklər oynaqladı;
ömür-gün qabaqdadı,
hələ, axırdı, demə.

# məni dolandır, başına

mənim əllərim toxunub,
bir günahın naxışına;
gəlim, öpüm əllərindən,
məni dolandır, başına;

kimdi, mənə səndən yaxın,
perikib dağlara, ahım;
onsuz da çoxdu, günahım,
birini də, bağışlama;

daha unut, acıları,
dərdin sınıq bacıların;
bulanıb bulud saçların,
gözlərinin yağışına;

kimdi, könlümü güldürən,
gəlmişəm, yenə gül dərəm;
məni oxlayıb, öldürən,
o kirimiş baxışına;

dərd gedə, heçim ağlıya,
həsrət bir biçim ağlıya;
az qalır, içim ağlıya,
yolum qayıdır, axşama.

## ömür yoldu

göy üzündə bulud var,
elə bil, ağ keçədi;
şəhər yaman sıxılır,
binalar iç-içədi;

kimdi, bizi kiridən,
sevgimizi əridən;
bir nəfəs al, dərindən,
görüm, halın necədi;

sular ağbəniz olub,
dünya bir dəniz olub;
bir yanı gündüz olub,
bir yanı da gecədi;

payız dağdan aşırmı,
kimnən qatım başımı;
mən unutdum, yaşımı,
sənin yaşın neçədi;

bu dünyamız dörd divar,
namərdi var, mərdi var;
hərənin öz dərdi var,
ömür bir işgəncədi;

buz dediyin, bulaqdı,
sular daşdı, yol axdı;
ömür yoldu, yolaqdı,
yolun sonu, heçədi.

# yağışlı yuxu

yatanda elə yatırıq,
elə bil daşıq, yuxuda;
bilmirəm, gördüyüm nədi,
mən, bu qarışıq yuxuda;

fələk mənə göz-qaş atır,
göz-qaşını bom-boş atır;
o kimdi, mənə daş atır,
bu, bircə qaşıq yuxuda;

gözlərim niyə səyriyir,
buzlu bulaqlar əriyir;
üstümə dağlar yeriyir,
ruhum dolaşıb, yuxuda;

yenə tutub ağrım-acım,
bilmirəm ki, hara qaçım;
atam, anam, bir də, bacım
hamı yığışıb, yuxuda;

yoluma bir yağış düşüb,
bir yağışlı yoxuş düşüb;
alnıma bir naxış düşüb,
bu nə naxışdı, yuxuda;

göy üzü gölmə-gölmədi,
sular yerə tökülmədi;
gecə buludlar ölmədi,
hələ yağışdı, yuxuda.

# günü-günə calıyıram

göy üzündə ağ buludlar,
görən hara üzür, gedir;
yenə bu qışın şaxtası,
iliyimi kəsir, gedir;

yaz gəlmir, çillə tuturam,
ocağı küllə tuturam;
nə qədər dilə tuturam,
yenə  ruhum küsür, gedir;

mən nədən kür idim, axı,
elə həsrət yedim, axı;
fələyə nə dedim, axı,
dodağını büzür gedir;

kim gəlib aça, ilməni,
saçımdan ağca,  ilməni;
kimdi, beş-onca kəlməni,
alnımıza cızır, gedir;

ürəyim nədən yuxalır,
qos-qoca dağlar yıxılır;
payız gəlir, dərd çoxalır,
dəli rüzgar əsir, gedir;

gül olma, dərdin ağına,
qar düşüb, omrün  dağına;
yenə güllə qabağına,
elə yetim-yesir gedir;

mən kimi acılıyıram,
itən yurdda lalıyıram;
günü-günə calıyıram,
ömür də  tələsir, gedir.

# dünya bizim yuxumuzdu

biri vardı, biri yoxdu,
bu nağılı kim oxudu;
deyirlər, dünya yuxudu,
hələ ki, oyağıq, gedək;

burnumuz kükürd qoxulu,
gözlərimiz süd yuxulu;
gəl, danışaq süd nağılı,
süd yoluna axıb gedək;

harda yoxuq, harda varıq,
buluduq, yağışıq, qarıq;
bir ayrı dünya axtaraq,
ayrı yerə yağıb gedək;

istəyirsən, düzün deyim,
yediyimiz üzüm deyil;
bu dünya da bizim deyil,
dünyadan uzağıq, gedək;

payıza, qışa düşürük,
qana, qarğışa düşürük;
çox şeyi başa düşmürük,
hələ, çox uşağıq, gedək;

varımızdı, yoxumuzdu,
acımızdı, ağrımızdı;
dünya bizim yuxumuzdu,
yuxumuzdan çıxıb gedək.

# gedək, bir ömür yaşıyaq

*(yurd-yuvasından didərgin düşən soydaşlarımıza)*

ürəyimə bir söz axıb,
kövrəlib dolduğum yerdə;
payız nədən at oynadır,
baharın solduğu yerdə;

tac oldum, taxtdan yıxıldım,
bir şirin baxtdan yıxıldım;
nədən, tələsib doğuldum,
dərdin doğulduğu yerdə;

mən dərdi gördüm, yaxından,
alışıb yandım, ahından;
anam çəkilmir, yuxumdan,
saçını yolduğu yerdə;

hanı arzu, hanı dilək,
nə cinəm, nədə ki, mələk;
göydən daş yağaydı, fələk,
sənə qul olduğum yerdə;

hər tərəfdə fitnə gəzir,
bu yurdda yad it nə gəzir;
xeyir-bərəkət nə gəzir,
haqqın boğulduğu yerdə;

divara kilim yaraşır,
çəkənə zülüm yaraşır;
adama ölüm yaraşır,
yurddan qovulduğu yerdə;

neynirik, dərdi daşıyaq,
daş götür, dərdi daşdıyaq;
gedək, bir ömür yaşıyaq,
dərdin sovulduğu yerdə.

# göy üzündən gələn var

səhərə azca qalıb,
ağ sular qırçın-qırçın;
yuxuda boğulmuşam,
islanıb üzüm, saçım;

bu yuxuma kim girib,
məni yarpağa sərib;
fələklər üz döndərib,
bilmirəm nədir, suçum;

hanı, mənim daş adım,
gedib harda yaşadım;
dərdin birin oxşadım,
çıxım, birindən qaçım;

dağda küləklər əsir,
ruhum hara tələsir;
üzümdə gülüş gəzir,
canımda qara sancım;

gözlərin cüt gilənar,
bəs, ürəyində nə var;
göy üzündən gələn var,
durum, qapını açım.

# göy üzünə salam olsun

orda lalıyır, yurd yeri,
ağrı-acı görə-gərə;
günahları hardan asdım,
hardan düşdüm, bu şəhərə;

içim-çölüm sətir-sətir,
mənə bir damcı su gətir;
gecə öləziyib gedir,
Günəş qayıdır səhərə;

bəs hanı, bu qışın qarı,
ötən dərdi unut, barı;
külək ağca buludları,
göy üzünə sərə-sərə;

getdi, payız yağışları,
öldü, fələyin quşları;
üzündəki qırışları,
oyma-oyma, dərə-dərə;

nolar ki, qoy olan olsun,
bu dünya da, yalan olsun;
göy üzünə salam olsun,
tanrılar qayıdır, Yerə.

# hələ, bu dərdin biridi

illər ötdü, zaman keçdi,
dərdlər sızaq-sızaq qaldı;
anamın beşcə körpəsi,
böyümədi, uşaq qaldı;

ürəyim pis olur hərdən,
dönüb qaçıram, hər yerdən;
anamın çəkdiyi dərddən,
gözlərində bulaq qaldı;

hələ, bu dərdin biridi,
ruhumu həsrət sürüdü;
dörd yanı yağı bürüdü,
nə yol, nə də, yolaq qaldı;

o kimdi, orda lalıyan,
dönüb dörd yanın dalıyan;
içimdə bərkdən uluyan,
bir tənha yalquzaq qaldı;

xatirələr pərən-pərən,
hanı, dərdi günə sərən;
aranı nə kəsdi, görən,
dağlar bizdən uzaq qaldı.

## mən adda adam yoxdu

kimdi, qapımı döyən,
axı, bu gecə vaxtı;
mən nə vaxtdan yatmışam,
təkcə, ruhum oyaqdı;

durum gedim, hayana,
sular axıb dayanar;
bəs o, alışıb yanan,
ulduzlar hardan axdı;

tay, qönçələr boy atmır,
kimsə məni oyatmır;
əllərim göyə çatmır,
göy üzü çox uzaqdı;

mən nə sində, nə üzdə,
bu bətdə, bu bənizdə;
ruhum uzaq dənizdə,
bir yelkənsiz qayıqdı;

deyir, bəduğurmuşam,
harda dərd udurmuşam;
deyən, unudulmuşam,
mən adda adam yoxdu.

# mənim ruhum burda deyil

buludlar çəkilib getdi,
baxdım, göy üzü aynadı;
gündüzlər səni düşündüm,
gecələr ulduz sanadım;

unutmuşdum, köy üzümü,
bozarmış, göm-göy üzümü;
uçub gəzdim, göy üzünü,
yorulub, düşür qanadım;

bax, ulduzlar ocaq-ocaq,
hamısı bir-bir uçacaq;
indicə, çiçək açacaq,
ovcumun içində adım;

dünyanı kim verib bizə,
ömür ötür, küsə-küsə;
ağladım, bir qərib üzə,
bir dəli sözə oynadım;

harda gəzdim, veyil-veyil,
bu dəlisov ağlıma kül;
mənim ruhum burda deyil,
göy üzündən o yanadı.

# nə var, sözdən yuxarı

nə var, nə var dünyada,
nə var, sözdən yuxarı;
alovu ərşə qalxır,
ocaq, közdən yuxarı;

oxa kaman yaraşır,
dağa duman yaraşır;
sənə yaman yaraşır,
xalın üzdən yuxarı;

məni kimlər haraylar,
o taylar, həm bu taylar;
orda daşıbdı, çaylar,
sular dizdən yuxarı;

üzür, göyün üzündə,
nə var, Ayın üzündə;
əksi suyun üzündə,
Ay dənizdən yuxarı;

xəbər varmı, elatdan,
bu dəli çaydan atdan;
ürək sinənin altda,
könül gözdən yuxarı;

mən əkində, biçində,
bu dünyanın köçündə;
göy üzünün içində,
Tanrı bizdən yuxarı.

## o buluda çox oxşama

payızdan köç edən quşlar,
yazda yaşıla dönəcək;
yuxuda uşaq olacam,
anam başıma dönəcək;

həsrətim çətin kiriyə,
baxışından buz əriyə;
xəyalım dönüb geriyə,
on beş yaşıma dönəcək;

saçımdan bulud boylanıb,
içimdə bir dərd oyanıb;
getdiyimiz yol dolanıb,
yora-yoxuşa dönəcək;

gün gedib dönür axşama,
sən hardan çıxdın qarşıma;
o buluda çox oxşama,
yazda yağışa dönəcək.

# ömür axan su kimidi

yamacda duman sürünür,
çəməndə qönçə boylanır;
saçımın ağ sarayından,
bir çimdik gecə boylanır;

könlüm sənə nə desin, nə,
ömrün ötən vədəsindən;
yaşımın on yeddisindən,
bir qız gizlicə boylanır;

ağrılar nə vaxta çəkər,
yenə könlüm həsrət içər;
anam, yuxumdan hər gecə,
dərd çəkə-çəkə boylanır;

nə qalıb, çıxa yadımdan,
yıxıldım, qançır atımdan;
hərdən sinəmin altından,
bir ağ səksəkə boylanır;

o nədi, arzu kimidi,
bir solğun yazı kimidi;
ömür axan su kimidi,
sonda, bir heçə boylanır.

## saçlarıma bir səhər çək

gümüş yuxular kimiyəm,
gecələrim çiçək-çiçək;
dönüb qayıtmır üstümə,
xəyallarım, gerçək-gerçək;

axı, nədən belə kürsən,
elə könlümü ütürsən;
gedib sənə dərd gətirsəm,
ağla, sızla, birtəhər çək;

mən hansı cığırda azdım,
qar tutubdu, alın yazım;
pörşələnib, dilim-ağzım,
göz yaşından bir zəhər çək;

ağca sular axıb gedər,
həsrət məni yaxıb gedər;
qoyma ruhum, çıxıb gedə,
ürəyinə bir çəpər çək;

dünyanı çapım, gətirim,
dərdin ağ sapın gətirim;
bir fırça tapım, gətirim,
saçlarıma bir səhər çək.

# salam, nə vaxt qayıtdın

salam, nə vaxt qayıtdın,
çoxmu keçib, o vaxtdan;
min illərdi, getmisən,
səsin gəlmir, uzaqdan;

adamlar harda itir,
yox olur, sətir-sətir;
bir az mənə su gətir,
şirin sulu bulaqdan;

bildirmirəm acımı,
hanı, dərdin açımı;
payız qara saçımı,
keçiribdi daraqdan;

harda məni öyən var,
əlimdə boş yüyən var;
qapımızı döyən var,
elçi gəlir günahdan;

qayıdır çillə, indi,
çıx görüm çölə, indi;
deyir bax, elə indi
fələk yıxıldı, taxtdan;

əriyib gedir dinlər,
adam olmadı cinlər;
ötdü, neçə min illər,
biz yoxuq, yoxuq çoxdan.

## sevdim, uzaq bir dənizi

ayağımın altında yer,
başımın üstə göy üzü;
baxır, qarışıq yuxumdan,
bu dünyanın ögey üzü;

yalları payız haxladı,
otlar, çiçəklər ağladı;
ağlım bir uşaq ağlıdı,
mənim üzüm - bir köy üzü;

günah axtardım, özümə,
ütüldüm, dərdin közünə;
saralır göyün üzündə,
fələyin bəti-bənizi;

yollar gözümdən aşağı,
sular dizimdən aşağı;
əlindən alıb işığı,
bağlayır gecə, gündüzü;

ruhum əsir oldu, harda,
babam diksindi, məzarda;
ürcah oldum, uzaq yurda,
sevdim, uzaq bir dənizi.

# soruşma, dərdin yaşını

nə keçir, yaldan yuxarı,
dağların cığır yerindən;
sinəmə sığmır ürəyim,
atdanıb, çıxır yerindən;

canım nə çəkir, ağlımdan,
həm dəli, həm kür ağlımdan;
bezdim, ərəb nağılından,
ağlımın axır yerindən;

yurd yeri qazılı qalıb,
qayalar yazılı qalıb;
göy üzü asılı qalıb,
çiynimin yağır yerindən;

gördüm, həsrətin qışını,
soruşma, dərdin yaşını;
aranım dağa daşınır,
gecəmin yuxu yerindən;

yaz olmamış çillə gəlir,
göm-göy sular lillə gəlir;
dərd gələndə, elə gəlir,
dağları yıxır, yerindən;

bulud keçir, naxır-naxır,
ürəyimi nələr yaxır;
bir həsrət boylanır, baxır,
gözümün çuxur yerindən.

# yarpaq harda bükülür

bulud örtüb üzünü,
itib, Ayın yarısı;
gözlərin Aydan arı,
gözlərin, dupduru su;

yarpaq harda bükülür,
yuxularım çəkilir;
ağaclardan tökülür,
bu payızın sarısı;

gecə ilmə-ilmədi,
küsdün, üzüm gülmədi;
aşıb keçə bilmədim,
bağçanızın barısın;

günlər dənə-dənədi,
ömür, sənə-sənədi;
dünya dediyin, nədi,
yarı  torpaq, yarı su;

apar, dərdi yerə sər,
saçlarından yel əsər;
hardan baxır, görəsən,
göy üzünün Tanrısı.

## gedim, harda tapınım

bu payız da, beləcə,
qoynuna gedir, qışın;
daha vaxt çatıb, gedim
dərdlərimlə barışım;

ruhum harda bükülür,
orda dağlar sökülür;
başıma qar tökülür,
itib gedir, yaddaşım;

gedim, harda tapınım,
söküm, dərdin sapını;
payız alıb qapını,
yarpaqları sarışın;

axı, nə var dünyada,
gəldim ki, düşüm yada;
bir yarpağa, bir ota,
bir çiçəyə yaraşım;

bulud kündə-kündədi,
bir ömrün köçündədi;
ürəyim pis gündədi,
yaman qarışıb, başım.

## unutduğum göy üzü

unutduğum göy üzü,
tanrıya daha yaxın;
burdan dağlar görünmür,
hardan boylanım, baxım;

dünya bağlı qalaça
gedib harda qalacam;
bir cüt qanad alacam,
yeri tutmur, ayağım;

mən daha nə görəcəm,
bağ becərəm, yer əkəm;
saçlarına hörəcəm,
çiçəklərin ən ağın;

ömrün qırışığı var,
dərdin qarışığı var;
üzümdə işığı var,
gözündəki çırağın;

günüm harda keçinə,
döndüm bulud köçünə;
nə yazılıb, içinə,
alnımdakı varağın.

# ürəyim daha yoxdu

hardan gəldi, bu ağrı,
ürəyimi nə sıxdı;
hansı yolu aradım,
gedib həsrətə çıxdı;

könlümü söz tutubdu,
ruhumu toz tutubdu;
elə bil, buz tutubdu,
canım yaman soyuxdu;

ömür-gün də, azıymış,
sevgilər ayazımış;
uzaq sularda azmış,
könlüm tənha qayıxdı;

kimlər məni ağladı,
dərdimi qucaqladı;
qara bulud çağladı,
bilmədim, hara yağdı;

mən, niyə kür imişəm,
dinmirəm, kirimişəm;
onu sənə vermişəm,
ürəyim daha yoxdu.

## ürəyim, bir kövrək simdi, gözəlim

əsir başım üsdən, xəzan yelləri,
elə üz tuturam, küləyə sarı;
çəkdiyim şələlər əzir çiynimi,
yenə qayıdıram, şələyə sarı;

kimin xəbəri var, ağrı-acımdan,
ağ güllər asılıb qara saçımdan;
açıb buraxırlar, dar ağacından,
alnımı tuturlar, gülləyə sarı;

payız yarpaqlara dərd-səri bükür,
bəs, niyə durmusan, gəl ağla, hönkür;
hərdən ürəyimi yurd yeri çəkir,
durub tərpənirəm, çöllüyə sarı;

hər gecə yuxuma bir qız qayıdır,
əlləri qoynunda, yalqız qayıdır;
yay ötür, yaz gedir, payız qayıdır,
buludlar axışır, çilləyə sarı;

dünyanın gərdişi nə zalım olur
ayrılığım olur, vüsalım olur;
deyir, tələsirsən, a zalım oğlu,
fələyin qurduğu tələyə sarı.

sevgin az olanda, tutur kürlüyüm,
bir şirin, bal kimi söz de, kiriyim;
gətir, əllərindən tutum, yeriyim,
əllərim yellənir, çəliyə sarı;

ürəyim, bir kövrək simdi, gözəlim,
gözüm öz yaşında çimdi, gözəlim;
axı, səndən başqa kimdi, gözəlim,
baxan, mənim kimi dəliyə sarı.

## ürəyimə yaxın dur

orda, dağlar baş-başa,
qayalar yalçın-yalçın;
ürəyimə yaxın dur,
dərdimi sənə açım;

daha bir də, üzülmə,
əsir olma, zülümə;
nur qonanda üzünə,
azalır, ağrım-acım;

nə qəlbidi, barılar,
uçar, bağrım yarılar;
harda qalıb, tanrılar,
itib gedir, inancım;

saçımdan payız baxır,
könlümü qubar yaxır;
yetim bulaqlar axır,
suları qırçın-qırçın;

kimsə məni unudur,
yolları dolu tutur;
gözümü bulud tutur,
yağsam, islanar saçın.

# uzaq dənizdə batdım

bilmədim, nə səsiydi,
sel oldu, çatdı mənə;
toxunub ürəyimə,
dərdi oyatdı, mənə;

çoxaldı, ağrılarım,
əl vurma, yıxılaram;
qarışıq yuxularım,
yenə qayıtdı, mənə;

hansı yurdda uyudum,
yan-yörəmi su yudu;
bir yaz günü ayıldım,
fələk tor atdı, mənə;

könlüm nəyə yüklənib,
bir həsrətə köklənib;
üzüm yaman köhnəlib,
üzüm boyatdı, mənə;

yolları hara çatım,
yoruldum, bir az yatım;
uzaq dənizdə batdım,
suları yaddı, mənə.

# dünya bir yarpaq boydadı

ürəyimə bir səs düşüb,
bilmirəm, bu nə səsdi, nə;
qönçələr təzə doğuldu,
küləklər durub qəsdinə;

yaz gəldi, sular qaynadı,
göydə ulduzlar oynadı;
dünya bir yarpaq boydadı,
biz də, qonmuşuq üstünə;

say görüm, dərdin neçədi,
ömrün bir yanı gecədi;
ürəyim sapdan incədi,
bir də, könlümü küsdürmə;

ötən günləri saymışam,
ruhumu söz-söz oymuşam;
bir dəstə çiçək qoymuşam,
həsrətin soyuq büstünə;

ütülürəm, ütüm-ütüm,
hara gedim, harda itim;
alışdırıb hara getdin,
gəlib baxarsan, tüstümə.

# alnımı kim qaralayıb

yenə, bu payız küləyi,
yarpağı bükür, yuxuma;
o kimdi, ömür-günümün,
şəklini çəkir, yuxuma;

alnımı kim qaralayıb,
günlərimi sıralayıb;
kipriyimi aralayıb,
fələk görükür, yuxuma;

harda pozdular, adımı,
qırdılar, daş inadımı;
açıram, qol-qanadımı,
mələklər səkir, yuxuma;

buludlar alma-almadı,
ötən dərdlər sağalmadı;
göy üzündə su qalmadı,
buludlar çökür, yuxuma;

qalxıb, göy üzün ovuram,
ocaq çatıb, köz qovuram;
gecə-gündüz söz qovuram,
ruhum perikir, yuxuma;

gecə nə yaman uzandı,
ulduzlar alışıb yandı;
sənin səsinə oyandım,
şükür, çox şükür, yuxuma.

## bir acı sözdən yıxıldım

bir acı sözdən yıxıldım,
üzüm-gözüm qan içində;
qayıdın, götürün məni,
ölmüşəm, bir an içində;

bu nə cığır, bu nə yoldu,
ruhum harda yatıb qaldı;
qarşı dağlar itib qaldı,
qaldı, kor duman içində;

tanrının haqqı boynumda,
fələklər öz oyununda;
yurd yeri əli qoynunda,
lalıyır, zindan içində;

könlümü bir od qarsalar,
həsrət saçıma qar salar;
solur, şip-şirin arzular,
qocalır, güman içində;

kimdi, bizi dilə tutan,
alnımıza güllə tutan;
gözümüzü küllə tutan,
min illik yalan içində;

yayda nə var, qışda nə var,
gözündəki yaşda nə var;
öpdüyün o daşda nə var,
bu dəli dövran içində;

itib-batan yaddaş kimin,
dərd də olub, qardaş kimi;
dünya fırlanır daş kimi,
köhnə dəyirman içində.

## barışa bilmirəm, daha

elə bil köç düşüb göyə,
ağ buludlar çadır-çadır;
yenə, ürəyim çırpınır,
canıma ağrılar qatır;

harda batmışam günaha,
üzüldüm, bir qəfil aha;
barışa bilmirəm, daha,
şirin su da, acı dadır;

yenə soyuq çillə gəlir,
dərd də, gülə-gülə gəlir;
hərdən mənə elə gəlir,
bu Yer üzü bizə yaddır;

mən nə bətdə, nə bənizdə,
vurnuxuram, itən izdə;
sevdiyim o göy dənizdə,
bir yiyəsiz gəmi batır;

ötmür bu dumanlar, çənlər,
kimdi, o yoldan keçənlər;
qapımızda yal içənlər,
qayıdıb bizə daş atır;

dartılıram, kaman kimi,
yox oluram, zaman kimi;
ruhum azmış duman kimi,
hansı xarabada yatır.

# saçlarına sığal çək

saçlarına sığal çək,
qarışdırıb, küləklər,
görən uça bilərmi,
qanadsız kəpənəklər;

həsrət mənim qonağım,
üzünü döndər, baxım;
qızarıbdı yanağın,
qısqanar, çiyələklər;

yazdan bir naxış qalıb,
gözümdə yağış qalıb;
kimdən o qarğış qalıb,
sap-sarıdı, çiçəklər;

harda itib, köy üzüm,
olubdu, göm-göy, üzüm;
bulud tutub göy üzün,
hardan baxır fələklər;

o qız harda qarıyır,
saçlarını darıyır;
qanadlarım ağrıyır,
qopub düşür, lələklər;

yanmışam, öz közümə,
gəl, su çilə, üzümə;
ruhum baxmır sözümə,
küsüb gedir, mələklər.

# şairə qız verməzlər

deyir, duman çəkilir,
yollar üzü bəridi;
bulaqlar qurumayıb,
hələ sular diridi;

dəli külək atlıdı,
çapıb, suya qatıldı;
sular daşdan atıldı,
aşağıda kiridi;

yarpağı kim qurutdu,
dərdin məni unutdu;
yazın nəfəsi tutdu,
buz qalmadı, əridi;

quşların alacası,
uçub, yolun açası;
evin lap balacası,
uşaqların kürüdü;

bu həsrətim yüz ildi,
hara axdı, süzüldü;
əlin məndən üzüldü,
üstümə dağ yeridi;

o qapıdan girməzlər,
bir də, bizi görməzlər;
şairə qız verməzlər,
o, dəlinin biridi.

# yenə, qulağım səsdədi

durum, açım pəncərəni,
bu gecə yaman istidi;
hanı, kağızım-qələmim,
ürəyim şeir istədi;

ötən günlər hardan baxır,
ömür-gün su kimi axır;
ürəyim yaman darıxır,
sevdamın boyu bəstədi;

saçımın nə çox qarı var,
ürəyimin qubarı var;
canımda çoxlu ağrı var,
ağrılarım üst-üstədi;

payız dağdan aşır, yenə,
sular hardan daşır, yenə;
göy üzü qarışır, yenə;
buludlar köç üstündədi;

dərd, aranlı-dağlı qalıb,
bir sevda nağılım qalıb;
əlim-qolum bağlı qalıb,
ruhum hələ qəfəsdədi;

bilmirəm ki, nədən kürəm,
həsrət gəlir, bürəm-bürəm;
qapımı kim döyər, görən,
yenə, qulağım səsdədi.

# səni unutmaq çətin

dünyada şirin nə var,
busəli dodaq kimi;
gözlərin elə dolub,
çağlayan bulaq kimi;

axı, kimə borcluyuq,
yol gedirik, yolçuyuq;
ikimiz də suçluyuq,
bu eşqə ortaq kimi;

buludlar, naçar-naçar,
üzündən gülüş qaçar;
həsrətim yarpaq açar,
yaşılca budaq kimi;

sevgidən böyük nə var,
buraxma, əlim donar;
ürəyim düşüb sınar,
bir şüşə bardaq kimi;

mən harda azım, itim,
sonu yoxdu, həsrətin;
səni unutmaq, çətin,
dərdi unutmaq kimi.

# daha yandırma, şamları

daha yandırma, şamları,
mələklər görüb gələcək;
qapının ağzında dayan,
indi, bir qərib gələcək;

gələcək, dərdin yasından,
göy üzünün ortasından;
ötən eşqin butasından,
könül nə dərib, gələcək;

itib getmir acılarım,
hanı, dərdin bacıları;
anamın ağca saçların,
gizlicə hörüb, gələcək;

dəryalar udur, gəmini,
unut, dünyanın qəmini;
bulud gözümün nəmini,
yarpağa sərib gələcək;

hanı, ruhumun şəkili,
ahım dağlara çəkilib,
həsrətim oda bükülüb,
yenə közərib, gələcək;

kim görüb, adsız mələyi,
qopub tökülür lələyi;
bu yazın dəli küləyi,
dərdi süpürüb gələcək.

# sıxdı, uzaqlar məni

sıxdı, uzaqlar məni,
həsrətim yarpaqladı;
burdan çoxdan getmişəm,
məni kim soraqladı;

kimin oduna düşdüm,
yarpaq kimi bürüşdüm;
dağlar yadıma düşdü,
içim-çölüm ağladı;

bilmirəm, bu nə gündü,
ruhum harda üyündü;
alnıma payız döndü,
saçımı daraqladı;

alışıb yanır, içim,
ovcunu tut, su içim;
hardan atdanım, keçim,
sel-su yolu bağladı;

duraq, hara yüyürək,
nə desinlər, kiriyək;
ayaq açdıq, yeriyək,
ayrılıqlar haxladı;

o kimdi, səfil-səfil,
dolaşır, hər tərəfi;
yuxuda öldüm, qəfil,
dodağım uçuxladı.

# mənə bir xoş xəbər gətir

bir az da, yaxın gəl, mənə,
üzünü qoy üzüm üstə;
ürəyim sapdan asılır,
güldən ağır sözün üstə;

uzaqda bir işıq yanır,
gecəyə qarışıb yanır;
həsrətim alışıb yanır,
canımdakı közün üstə;

xəyalım harda dolaşır,
nahaq günaha bulaşır;
Günəş də, Ayla dalaşır,
gecəylə gündüzün üstə;

burda hansı dərd gəzirdi,
basıb könlümü əzirdi;
elə bil, ruhum əsirdi,
uzaq bir ulduzun üstə;

çıxdım əkindən, səpindən,
üzüldüm, dərdin ipindən;
asıldım, saman çöpündən,
dəryanın, dənizin üstə;

ağ buludlar çətir-çətir,
könlümdən küləklər ötür;
mənə bir xoş xəbər gətir,
öpüm, qoyum gözüm üstə.

# tanrı kimə vaxt verib

payız nə tez qayıtdı,
yarpaqlar sarı-sarı;
yenə döndü könlümə,
ürəyimin qubarı;

ulduzlar kürə-kürə,
gəldik, dərd görə-görə;
alnımdan düşüb yerə,
fələyin dərkənarı;

həsrətimə acıma,
əlini qoy ovcuma;
yağdı, qara saçıma,
bu qışın ağca qarı;

göy üzünün köçündə,
buludlar kündə-kündə;
bax, ovcumun içində,
cızıqlar, yarı-yarı;

tanrı kimə vaxt verib,
dərdi ikiqat verib;
deyir, orda çat verib,
babamızın məzarı;

bu nə səsdi, kiridi,
qəlbi dağlar əridi;
gecə yuxuma girdi,
göy üzünün kənarı.

# günah məni axtarır

ürəyim asılıbdı,
çəkmədiyim bir ahdan;
bir gecə ölüb gedir,
hər açılan sabahdan;

payız gəlib, çən düşüb,
saçıma əkin düşüb;
ruhum didərgin düşüb,
dönüb qayıtmır, gahdan;

kim dərd satıb, baxt alır,
axmaq fikir vaxt alır;
günah məni axtarır,
mən qaçıram, günahdan;

nə tapdım, nə itirəm,
harda azıb itirəm;
hərdən çıxıb gedirəm,
eşq adlı qibləgahdan;

nə gəzirsən, meşədə,
divin canı şüşədə;
hüzuruna  düşəndə,
nə gizlədim, padşahdan;

indi harda umud var,
göy üzündə bulud var;
aralanmır, buludlar,
söz soruşam, Allahdan.

# ürəyimə məktub

salam, necəsən ürəyim,
sinəmin altı necədi;
məni hər yana çapırsan,
mindiyin atın, necədi;

bu qələmim lələk deyil,
şair hələ mələk deyil;
hamı sənə ürək deyir,
adın, soyadın, necədi;

bezmədin, canımdan mənim,
dərd ötmür, yanımdan mənim;
doymursan, qanımdan mənim,
qanımın dadı, necədi;

bilmirəm ki, qışam, yazam,
saçıma baxdım, bəyazam;
gərək sənə nəsə yazam,
şeir, bayatı, necədi;

bir gün gələn, bir gün gedər,
dərd-sərin məni əridər;
ürəyim, bir məktub göndər,
görüm, həyatın necədi.

# ulduzların gözü var

gözümüzün kökündə,
şirin-şirin yuxular;
bu ömür ağacından,
hərə bir cür yıxılar;

nə yalan, nə gerçəkdi,
nə qardı, nə çiçəkdi;
gözümə pərdə çəkdi,
uydurulmuş nağıllar;

bu dərd yükü nə imiş,
yolu min sənə imiş;
görən, bu gümüş-gümüş,
sular hara axırlar;

fələk bizi küsdürüb,
dəli yellər əsdirib;
qapımızı kəsdirib,
nə istəyir, yağılar;

bu qar, hər yanı hördü,
itlər ulduza hürdü;
adamlar iki cürdü,
dəlilər, ağıllılar;

kimin mənə sözü var,
hərənin bir üzü var;
ulduzların gözü var,
göy üzündən baxırlar.

## şəklimi divardan as

göy üzü yaman dolub,
buludlar daraq daraq;
gəl, uşaq olaq, bir az,
burda bir evcik quraq;

hərə bir çiçək üzək,
suların üstə düzək;
kağızdan qayıq düzəlt,
üzək, dənizi yoraq;

bulud harda yuxalır,
sular axıb yox olur;
ayrılıqlar çoxalır,
bizdən iraq, min iraq;

nə istədik, bu yazdan,
yel əsdi, aramızdan;
mən uçacam, bir azdan,
daha, əlimi burax;

daha saçlarım bəyaz,
mənə düşərmi, bu yaz;
şəklimi divardan as,
yadına düşəndə bax.

# daha, qul olduğum bəsdi

bu nə havadı, bilmirəm,
deyən, yenə qış qayıdır;
ruhum havalanıb gedir,
canıma sərxoş qayıdır;

harda itirdim, yaşımı,
ağrılar kəsdi qarşımı;
altına tutum başımı,
göy üzündən daş qayıdır;

qaldım, uçuna-uçuna,
lənət, kafirin xaçına;
həsrətim gedir Laçına,
dönüb əliboş qayıdır;

nə karəyik, nə karə bə,
gül olduq, farsa, ərəbə;
el-oba qalıb xaraba,
evlərə bayquş qayıdır;

qar yağır, qışın içindən,
dərd çıxır, daşın içindən;
gözdəki yaşın içindən,
min illik yaddaş qayıdır;

ürəyimə düşən səsdi,
nə yaxşı, küləklər əsdi;
daha, qul olduğum bəsdi,
ruhuma savaş qayıdır.

# bura dərdin yeridi

yamac boyu sürünüb,
duman dağı bürüdü;
saçlarımın içindən,
qaranlıqlar əridi;

düşünürəm, bayaqdan,
biz necə gəldik, yoxdan;
ölüb getmişəm, çoxdan,
ruhum hələ diridi;

payız döndü, yay itdi,
buludlarda Ay itdi;
dəli külək qayıtdı,
yarpaqları sürüdü;

dərd bir ayrı naxışdı,
qardı, buzdu, yağışdı;
ayrılıqlar yığışdı,
sevgiləri kürüdü;

hələ canın sulumu,
tanrı sevməz qulunu;
burdan salma, yolunu,
bura dərdin yeridi.

## mən bir uzaq yol üstə

mən bir uzaq yol üstə,
buludlar nohur-nohur;
heç, çimir eləmədim,
dincəlmədim, bir hovur;

çiynimdəki şələdi,
qanadım lələklədi;
kim nə günah elədi,
şübhələr məni qovur;

məndən bir nağıl istə,
dünya qollarım üstə;
qalıb yolların üstə,
həsrət gözünü ovur;

nə danışım, daha nə,
yaşım oldu min sənə;
ürəyim əsir yenə,
bir az üzümə su vur;

yanımdaca dur, elə,
məni bir fağır elə;
nəfəsini gur elə,
saçımdan qarı sovur.

# Norveç dağlarında

yenə, göy üzü doldu,
buludlar naxır-naxır;
çəhrayı yuxulardan,
gümüş yağışlar yağır;

dağlar baş-başa qalıb,
göyün üzü görünmür;
dərələrin dibində,
ağca duman sürünür;

ürkək marallar gəzir,
meşənin yaxasında,
pənbə buludlar üzür,
suların yuxusunda;

bax, bu gələn yağışdı,
buludların gözündən;
elə xoşluqlar yağır,
adamların üzündən;

üzünü meşə tutub,
hər yanı daşdı, dağlar;
bir-birinə bağlanıb
doğma qardaşdı, dağlar;

göy üzünə birləşir,
dənizlərin kənarı;
qızların saçı rəngdə,
dağların bəyaz qarı;

zirvələrdən aşağı,
dəli sular asılıb;
bu dünyanın yaddaşı,
qayalara yazılıb;

Günəş harda gizlənib,
bulud örtüb üzünü;
kimdən küsüb, dağ çayı,
daşdan atıb, özünü;

girib dağın içinə,
yollar o üzdən çıxır;
yağış buluddan gəlir,
bulud dənizdən çıxır;

dağların arasında,
gümüş göllər sayrışır,
sulardan qalxan buxar,
meşələrə qarışır;

Laçındakı dağların,
qoxusun aldım, burdan,
yaddaşım təzələndi,
kövrəldim, doldum, burda;

ağ evlər səpələnib,
yamaca, kündə-kündə;
elə bil, Laçındayam,
bu dağların içində.

*18 iyun 2019. Norveç Krallığı, Bergen şəhəri*

# quşların son baharı

dönür, yayın sonuna,
quşların son baharı;
yenə qayıdıb gəlir,
ürəyimin qubarı;

bu ömür-gün bir içim,
gəlim, nazını çəkim;
yarpaqlar büküm-büküm,
yarpaqlar sarı-sarı;

ağ saçım qardan düşüb,
yolum hasardan düşüb;
alnıma hardan düşüb,
tanrının dərkənarı;

dağ uçdu, qarı böldü,
qəfil daş narı böldü;
göy üzün yarı böldü,
buludların divarı;

qönçələr puçur-puçur,
küləklər hara qaçır;
deyəsən çiçək açır,
əllərimin qabarı;

ruhum harda çərriyər,
itən yurdda kiriyər;
od yandırma, əriyər,
göy üzünün kənarı.

# aramızda hicran gəzir

həsrətin çox üzür məni,
kölgə tək düşür yanıma;
aramızda hicran gəzir,
uzaq dur, onu tanıma;

mələk adı qoy, özünə,
dəysin, lələyin üzümə;
başımı qoyum dizinə,
nə istərsən yaz, alnıma;

bilmədim, nə vaxt yaz olub,
ömür-gün harda yazılıb;
yollar gözümdən asılıb,
sular qarışıb qanıma;

ummuram, küsülən yerdən,
elə özüm boyda dərdəm;
əllərim üzülən yerdən,
yıxılıram gümanıma;

bulud nəm ələr, üstümə,
göy üzü gələr üstümə;
saçlarını sər üstümə,
ruhum qayıtsın canıma.

# sonuncu dünya

əlini qoy sinəmə,
gör, ürəyim ordamı;
buluddan sel açılıb,
çökür, göylərin damı;

kimdi, mənim həyanım,
tez çağırın, oyanım;
Tanrı quran dünyanın,
divarından su damır;

bulud çalma-çalmadı,
ayrılıqlar solmadı;
daha bir şey qalmadı,
sular yuyur, odamı;

bu Yer üzü nə sində,
nə saatda, nə gündə;
gözümüzün önündə,
qoca dağlar budanır;

dərd də, bir çiçəyüzü,
mən kimin ögey üzü;
öləziyir, göy üzü,
sönür, Günəşin şamı;

daha bəsdi, dayanın,
gəlin, od vurun, yanım;
mən, sununcu dünyanın,
ən dəlisov adamı.

# nə var, yoxdan o yana

ox atdım, dağa düşdü,
gedək, oxdan o yana;
alnına nə yazılıb,
o gül baxtdan o yana;

yolu hardan əyirsən,
kola-kosa dəyirsən;
padşah ol, istəyirsən,
yeri, taxtdan o yana;

buludlar dəstə-dəstə,
ömür gedir, ahəstə;
durub yolların üstə,
qara, ağdan o yana;

bu göy üzü aynadı,
könlüm, gözüm oynadı;
bir acı su qaynadı,
buz bulaqdan o yana.

kim fırladır, dünyanı,
uçub gedir, bir yanı;
xeyir-bərəkət hanı,
gedib çoxdan, o yana;

dünya belə hərlənir,
hərə bir cür girlənir;
gözüm yoxa dirənir,
nə var, yoxdan o yana.

## daha, yolumu gözləmə

özümə bir dua yazım,
atım, göyün ortasına;
sonra, sonra da, and içim,
bu günün günortasına;

yapışım, bir ağ buluddan,
qoy aparsın, külək məni;
yuxumda sevib oxşayır,
bir ağılsız mələk məni;

bax, bir azdan, ulduzlar da,
silkələnib töküləcək;
tanrılar da, göy üzündən,
uzaqlara çəkiləcək;

axı, bizi kim danışıb,
bir yalançı nağılıq, biz;
yalan-yalan yuxulardan,
bu dünyaya doğulduq, biz;

mən də, bir eşqin zəvvarı,
ağ buludlar yetim-yetim;
hələ, bir az da yolum var,
hava qaralınca, gedim;

onsuz da, yollar qısadı,
bir gün gələr axır, çatar;
dəli-dəli sevdalardan,
mənə də, bir nağıl çatar;

payız da, qış da, ləngiyir,
yazı, yayı da, bilmirəm;
daha, yolumu gözləmə,
birdən, qayıda bilmərəm.

# ağlımı kim aldı, deyim

göy üzünü yarı bölüb,
ağ buludlar, barı kimi;
qara tellərin dağılıb,
könlümün qubarı kimi;

çəmən çiçək, bağça çiçək,
sarmaşıb ağaca, çiçək;
görürsənmi, ağca çiçək,
saçlarımın qarı kimi;

doymadım, bu yol-yolaqdan,
su içdim, bir xoş bulaqdan;
payız boylanır uzaqdan,
rəngi-ruhu sarı kimi;

ağlımı kim aldı, deyim,
dilim-ağzım laldı, deyim;
dodaqların baldı, deyim,
baharın nübarı kimi;

gözüm baxır, ay üzünə,
tellərini yay, üzümə;
çıxım gedim, göy üzünə,
səni sevim, Tanrı kimi.

# yenə, kimsə gələcək

yenə, o qərib səsdi,
ürəyimi oxudan;
yıxıldım Yer üzünə,
bir qarışıq yuxudan;

açdılar bələyimi,
yoldular lələyimi;
asdılar ürəyimi,
bir həsrətin oxundan;

Yer üzü günahıydı,
hərə bir padşahıydı;
axı, kimin ahıydı,
tanrıları qorxudan;

dönüb hara sapırdım,
ağrı-acı tapırdım;
yuxuda at çapırdım,
ayaqları qarğıdan;

yorub çatdım, yolları,
hanı, eşqin qulları;
kimdi, bu göy suları,
göy üzündən axıdan;

buludlar lələk-lələk,
bax, indi töküləcək;
yenə, kimsə gələcək,
bu dünyanın yoxundan.

## yuxu tökülür, gözümdən

yuxu tökülür, gözümdən,
gecənin də zəhmi ağır;
qaranlıq zindan kimidi,
çöldə quşbaşı qar yağır;

qalxım, qəfil oyanım da,
kim qalıbdı, hayanımda;
bu gecənin o yanında,
gümüş-gümüş sular axır;

həsrətim uçuq qalıbdı,
canımda acıq qalıbdı;
pəncərəm açıq qalıbdı,
mənə qaranlıqlar baxır;

axı, demişdin gələcəm,
gözündə yaş var, siləcəm;
nə bilim, nə vaxt öləcəm,
könlümü ağrılar yaxır;

çıxart, iynənin sapını,
bağla, dərdin hesabını;
gələndə döymə, qapımı,
məni ürəyindən çağır.

# yolun bir ucu qapıdı

hələ, payız dalamıyıb,
yarpağın sarısı yoxdu;
çiçəklər pərişan qalıb,
üstünün arısı yoxdu;

hardan belə sərin gəlir,
hər gün bir xəbərin gəlir;
dərd elə şip-şirin gəlir,
elə bil, ağrısı yoxdu;

dəsmalı sərib, yuxuma,
şeytan üfürüb, yuxuma;
bir adam girib, yuxuma,
üzünün yarısı yoxdu;

uzaqda bir yuvam qalıb,
bir amansız davam qalıb;
dərdin çoxu cavan qalıb,
qocası, qarısı yoxdu;

hardadı, yollar-yolaqlar,
ruhumu çəkir, uzaqlar;
bulanıq gəlir, bulaqlar,
birinin durusu yoxdu;

yolun bir ucu, qapıdı,
həsrətim, uçuq qapıdı;
könlüm bir açıq qapıdı,
hasarı, barısı yoxdu;

ürəyim nədən sıxılır,
qoca buzlaqlar yıxılır;
deyirlər, dünya dağılır,
elə bil, tanrısı yoxdu.

# yenə yay gedər payıza

yenə, yay gedər payıza,
yenə, quşlar köç eliyər;
yenə, yazın yaratdığın
payız gəlib heç eliyər;

yenə, nəsə olmalıdı,
yenə, ürəyim doludu;
yenə, o payız buludu
göy üzündə kəkəliyər;

yenə, gələr tozanağı,
süpürər dağdan aşağı;
payızın dəli sazağı
yenə, məni gic eliyər;

göy üzü hərdən deyinər,
qara buludlar öyünər:
yenə, ürəyim döyünər,
yenə, həsrət beçəliyər;

durum hansı yana baxım,
yenə, qaynıyır günahım;
heç bilmirəm, dəli ruhum,
haralarda gecəliyər.

# yenə yağmır, eşələnir

yenə, yağmır eşələnir,
qara bulud sancı çəkir;
şimşək at oynadıb gedir,
göy üzünə qamçı çəkir;

yollar dumanda qalıbdı,
könlüm gümanda qalıbdı;
ümman o yanda qalıbdı,
ruhumu bir damcı çəkir;

yolun ağzın yoxuş tutur,
könlüm gözüylə quş tutur;
yayı da, özü tuş tutur,
oxu da, kamançı çəkir;

fələk kimi sığallıyır,
ruhumu şeytan dalıyır;
kimi acından lalıyır,
kimini şah tacı çəkir;

hər ucalan qəsr deyil,
bəy də, nökər də, bir deyil;
hamının dərdi bir deyil,
hərə bir cür acı çəkir.

## yenə payız qayıtdı

yenə, payız qayıtdı,
yenə, yarpaqlar yağır;
qoyma qalam yuxuya,
məni dan üzü çağır;

sular axmağa gəlir,
Günəş doğmağa gəlir;
deyən yağmağa gəlir,
buludlar naxır-naxır;

yıxıldım, göy üzündən,
doğuldum, köy üzümdən;
ömrümün göy üzündən,
hər gün, bir ulduz axır;

ruhum hallıdı, sənnən,
könlüm lalıdı, sənnən;
içim doludu sənnən,
içimnən bir sən baxır.

# dərd

yenə gül oldum, qələmə,
çırpınıram, sözə sarı;
od alışır, yanıb gedir,
kül yıxılır, közə sarı;

kimiymiş, məni yaradan,
yarı daşam, yarı adam;
göy sular axır, aradan,
gecəylə, gündüzə sarı;

qönçələr boy atmaz, daha,
dəli ağrı yatmaz, daha;
əl uzatsam, çatmaz daha,
qəlbidi, dərdin hasarı;

gələn, yaz dumanı deyil,
bura xırman yanı deyil;
hələ, qışın sonu deyil,
boylanıram, yaza sarı;

neyləyir, xalıq eləyir,
gələn ağalıq eləyir;
fələk cığallıq eləyir,
qaynayır, dərdin bazarı;

başımın neçə tacı var,
dərdin qırx hörük saçı var;
harda bir ağrı-acı var,
dönüb gəlir, bizə sarı.

# yaman darıxır, ürəyim

canımı su alıb, deyən,
elə bil axır ürəyim;
səsin, səmirin gələndə,
yerindən çıxır, ürəyim;

bu yer kimin, bu yurd kimin,
uluyuram, ac qurd kimi;
dolur, qara bulud kimi,
içimə yağır, ürəyim;

gözün, yaşın ürəyidi,
dağın, daşın ürəyidi;
körpə quşun ürəyidi,
özümdən ağır ürəyim;

xəyalım harda dolaşır,
ruhum günaha bulaşır;
çölüm od tutub alışır,
içimdən baxır, ürəyim;

bəlkə, elə beləymişəm,
hər şeyi dərd eləmişəm;
axı, kimə neyləmişəm,
bir mən, bir fağır ürəyim;

səngimədi, ağrım-acım,
kimin qapısını açım;
bu dünyadan, hara qaçım,
yaman darıxır, ürəyim.

## ana məzarı

o gecə, yuxum qaçdı,
könlüm qubarı doğdu;
ağrı çəkdi, ağaclar,
yarpağı sarı doğdu;

anam bir ağı çəkdi,
ahım bulağı çəkdi;
həsrətim, ağ çiçəkdi,
saçım ağ qarı doğdu.

bulud loxma-loxmadı,
dünya qara daxmadı;
anam məni doğmadı,
bir dərd zəvvarı doğdu;

bilmədim, nə saçmadı,
ağrı-acı qaçmadı;
anam, gözün açmadı,
dərd, gecə yarı doğdu;

gəzdi, alnım uzunu,
fələk cızdı, yazını;
torpaq açdı, ağzını,
ana məzarı doğdu.

# ballada

gecənin yaxasını,
bir bəyaz ulduz sökür;
bir səhər də açılır,
elə, buna da şükür;

buludlar lələk-lələk,
göy üzündə bir mələk;
dodağında çiyələk,
məni çarmıxa çəkir;

mən nə bilim, suçumu,
üzüm-gözüm acımı;
payız qara saçımı,
ağca yarpağa bükür;

bilmirəm, nədir bu səs,
içim boşca bir qəfəs;
min ildi, nəfəs-nəfəs,
canımı bir dərd sökür;

göyün düz qırağında,
tanrının çırağında;
bir kağız varağında,
fələyin evi çökür;

payızın yağışları,
yuyur yor-yoxuşları;
göy üzünün quşları,
buludda bostan əkir;

yazım qışımın üstə,
üzüm daşımın üstə;
süzür, başımın üstən,
ruhum hayana səkir;

hərə bir dərd hayında,
mələklər bal ayında;
tanrı öz sarayında,
ağlayır, hönkür-hönkür.

# baxıram gündüzün qürub çağına

baxıram, gündüzün qürub çağına,
Günəş aşırımda yarıcan qalıb;
qırmızıya çalır sarı buludlar,
yarı ilik qalıb, yarı qan qalıb;

ötən yaddaşımı dərib göy üzü,
ruhumu üstünə sərib göy üzü;
o uzaq göy üzü, qərib göy üzü,
yarı gecə qalıb, yarı dan qalıb;

dərdi sıxcalasan, suyu da çıxmaz,
çağır, Məlikməmməd quyudan çıxmaz;
dünyanın qışı da, yayı da çıxmaz,
ömür yarı gedib, yarı can qalıb;

nə tez payız gəldi, nə tez qış oldu,
illər qanadlanıb nə tez quş oldu;
bütün sevgilərin kökü yaşıldı,
bütün ayrılıqlar sarıdan qalıb;

yağıb sellənib də, axıb getmişik,
dərdi, intizarı yığıb getmişik;
hansı cəhənnəmə çıxıb getmişik,
dağlar arxamızca pərişan qalıb.

# bilmirəm, hardan gəlmişəm

bilmirəm, hardan gəlmişəm,
gəldim, səni görüm, gedim;
tellərin pərişan qalıb,
tellərini hörüm, gedim;

bu dünya bizim deyil ki,
biz də, bir qərib seyirçi;
sənə ürək dolu sevgi,
həsrət də, gətirim, gedim;

mən kiməm axı, nə bilim,
sovur, ovcundadı, külüm;
günahım varsa de, bilim,
yol boyu itirim, gedim;

könlümün bir daş yeri var,
kipriyimin yaş yeri var;
ürəyimin boş yerim var,
dərdini götürüm, gedim;

bir bənövşə dərim, özüm,
köynəyinə hörüm, özüm;
qulağımda şirin sözün,
canımda ətirin, gedim.

# bir ömür də istə, şair

*Musa Yaquba məktub*

dərəyə duman çökübdü,
meşə itib sisdə, şair;
dağlar qalxıb göy üzünə,
qulaqları səsdə, şair;

qönçələr tər-tər açılır,
bir ağ səhərdə açılır;
hər gün, bir dərdə açılır,
dərd gəlir, üst-üstə, şair;

bu yol üstə, yolağ üstə,
hilal körpü, bir tağ üstə;
yığılıbdı, bulaq üstə,
qızlar, dəstə-dəstə, şair;

ürəyimi bir dərd əzir,
bu yurdda yağılar gəzir;
ruhumuz əsirdi, əsir;
canımız da, xəstə, şair.

üz gözümü həsrət ütüb,
qanadımda lələk bitib;
yuxumda bir çiçək bitib,
boycuğazı bəstə, şair;

payız dağın arxasında,
sarı naxış çuxasında;
tut, fələyin yaxasından,
bir ömür də istə, şair.

# bir azdan yola çıxıram

bir azdan yola çıxıram,
gedim, yığışdır, odamı;
sən yer üzünün mələyi,
mən göy üzünün adamı;

dərdi deyib, səri deyib,
göyü deyib, yeri deyib;
mənə dərd şairi deyib,
göy üzü verib butamı;

gəl, sərək payızı günə,
yarpaqlar ayılsın, günə;
orda qalıb ağzıgünə,
ruhumun bir uçuq damı;

unutmuşam, köy üzümü,
sındırdım, ögey üzümü;
çox dolaşdım, göy üzünü,
hardadı, ruhu atamın;

gözündəki yaşa baxma,
hörüyünü qoşa bağla;
ürəyini daşa bağla,
ağlama, mən qayıdanı;

bu yarpağa dərd bükürəm,
bükürəm, yenə sökürəm;
getdim, yaxına köçürəm,
o uzaq, tənha adanı.

# bircə, xətirimə dəymə

istədim əyim, buludu,
söz qoşum, öyüm buludu;
dağlara düyüm buludu,
cığırlar ilməyim olsun;

dara, saçlarımın ağın,
kimdi, mənə sənnən yaxın;
ağ buluddan köynək toxu,
bir bulud köynəyim olsun;

əllərimi üzünə tut,
ürəyimi sözünə tut;
göy suları gözümə tut,
göy sular eynəyim olsun;

ocaq yandırım, köz tutum,
elə söz qovum, söz tutum;
sən gələn yola üz tutum,
həsrətin göynəyim olsun;

yaşıl yarpaq düymə-düymə,
şeh üstündən düşər, əymə;
bircə, xətirimə dəymə,
göy üzü köməyin olsun.

# bu bulaq nədən quruyub

bu bulaq nədən quruyub,
suyu gəlir, damcı kimi;
sinəmdə şimşək oynayıb,
yeri qalıb, qamçı kimi;

bu doğruyan nədi məni,
yarası göynədir məni;
dərdin ütüb gedir məni,
sevgin gəlir, sancı kimi;

bax, buludlar didim-didim,
mən də, bir vaxt bulud idim;
bəlkə, qəfil çıxım gedim,
gedim, bir yalançı kimi;

bir bulaq oyum, içimdə,
dərdini yuyum, içimdə;
ürəyim suyun içində,
canım olub qançır kimi;

o nədi, gəzir könlümü,
daş kimi əzir, könlümü;
ayrılıq kəsir könlümü,
əzrayıl qılıncı kimi.

# o yarpağı sər üstümə

bu yarpağı sər, üstümə,
bax, elə burdaca yatım;
qarşıda bir uzun yol var,
yorulubdu, yaşıl atım;

bu səhəngi kim yıxıya,
min ildi, dönüb ağıya;
bir dərdi verim yuxuya,
gedim, ayrısın oyadım;

bir ömür nəyi aradım,
saçımdan həsrət daradım;
bu dərdi kimlər yaradıb,
nə adım var, nə soyadım;

üstünü örtdüm, gözümün,
külün üfürdüm, közümün;
deyən, mən özüm, özümün,
köksünə xəncər dayadım;

burda bitirək, nağılı,
nə dəliyəm, nə ağıllı;
qalmışam yarıyuxulu,
gəl, üstümü ört, həyatım.

## bu dünyada sən olmasan

bu dünyada sən olmasan,
bəs sevdiyim kim olardı;
boş qalardı, ürəyim də,
adım da, heç kim olardı;

bu dərd çox üzərdi, məni,
həsrətin əzərdi, məni;
gözəllər süzərdi, məni,
hər gün, yüz elçim olardı;

bahar qış olardı, mənə,
dünya boş olardı, mənə;
bir qız qoşulardı mənə,
sevgim, bir içim olardı;

könlüm şişə çəkilərdi,
pörşələnib tökülərdi;
yuxum ərşə çəkilərdi,
ağrılar çim-çim olardı;

dost gələrdi, uzaq kimi,
dərd ulardı, sazaq kimi;
bir tənha yalquzaq kimi,
bir mən, bir içim olardı.

# bu qışdan çıxa bilmirəm

bu qışdan çıxa bilmirəm,
qarı saçımda qalıbdı;
gecənin bağrı çatlayıb
yarı, saçımda qalıbdı;

bilmirəm, sənlə nə işim,
gəlim, dalaşım, əyişim;
yüz il öncəki öpüşün,
barı saçımda qalıbdı;

baharım, yayım oynayıb,
harayım, hayım oynayıb;
payız bir oyun oynayıb,
sarı saçımda qalıbdı;

bax, göylərdə, işıq yanır,
həsrətə qarışıb, yanır;
gözlərin alışıb yanır,
qoru saçımda qalıbdı;

könlümü küsgün bürüyüb,
dağları pis gün bürüyüb;
yolları çisgin bürüyüb,
toru saçımda qalıbdı.

hələ bu dərdin harası,
ütüldüm, yollar arası;
əriyib getdi, qarası,
ağrı saçımda qalıbdı.

# bulud gəldi, yağmadı heç

bulud gəldi yağmadı heç,
qalxım, buludu əliyim;
başımda bulud papağım,
əlimdə gümüş çəliyim;

çağırma, üzüm səyriyir,
külək ələyimi əyir;
qanadıma nəsə dəyir,
qopub tökülür, lələyim;

and olsun axşam çağına,
bir səs gəlir qulağıma;
düşüm yolların ağına,
üzü dağlara ləliyim;

elə bumu, alın yazım,
kür ruhumu hardan asım;
göy üzünə dua yazım,
bircə ağız da məliyim;

nə var, nə var, səndən doğma,
dərd çeynədim, loxma-loxma;
gəl, üzümə soyuq baxma,
yenə, tutar dəliliyim.

# bura mənə yad gəlir

üzünü döndər, mənə,
doyunca baxım, gedim;
ovcunu tut gözümə,
gözümü sıxım, gedim;

sözlərini bala bük,
baxışını yola bük;
dərdini dəsmala bük,
hamısın yığım, gedim;

çətin səni unudam,
həsrətin bir dolu dam;
bir qaraca buludam,
hıçqırım, yağım, gedim;

saçımın ağı qalıb,
könlümün ahı qalıb;
gözümdə yuxun qalıb,
gözümdə yuxun, gedim;

nə gəlir, boyat gəlir,
ürəyimə çat gəlir;
bura mənə yad gəlir,
buraxın, çıxım gedim.

## canımı üzmüşəm daha

canımı üzmüşəm, daha,
yıxar, öz küləyim, məni;
buludam, yağa bilmirəm,
ələkdən ələyin, məni;

salım, eynimə dağları,
geyim, əynimə dağları;
qoyun çiynimə, dağları,
çatın, şələliyin, məni;

qapımızdan qış asılıb,
yolumdan qarğış asılıb;
qanadımdan daş asılıb,
incidir, lələyim məni;

bəs harda qaldı, gələnim,
acıqlanım, öfkələnim;
sonra, divara söykənim,
gəlin, güllələyin məni;

nə əvvəldi, nə axırdı,
çiynimin yükü ağırdı;
məni bir günah yoğurdu,
öldürsün fələyim, məni.

# çiçəklər yetim qalıbdı

bax, əllərimin içindən,
gör, nə qədər cığır gedir;
elə həsrətlə baxırsan,
dərdin məni yaxır, gedir;

qaranlıq harda dayanır,
yerindən Günəş boylanır;
sevinc bir anlıq oyanır,
dərd çox ağır-ağır gedir.

deyir, nə dərdim qalıbdı,
külək bir ötüm qalıbdı;
çiçəklər yetim qalıbdı,
bulud naxır-naxır gedir;

dənizdən gəlir, sədalar,
batır, kimsəsiz adalar;
niyə sevdiyim adamlar,
məni tək buraxır, gedir;

neyləyirik, fələk görür,
bizi lələk-lələk görür;
ömür bir qapıdan girir,
o birindən çıxır, gedir.

# dağlara məktub

dağlar, bir oda düşmüşəm,
ağrıların içir, məni;
bu həsrətin əlindən al,
ürəyinə köçür, məni;

hanı, bir ömrün yarısı,
yıxılmır, dərdin barısı;
yer ağrısı, yurd ağrısı,
ilmə-ilmə sökür məni;

ruhum qalıb özbaşına,
dərd darışıb üst-başına;
gəlim, dolandır başına,
köynəyindən keçir, məni;

kim əliyib ələyimi,
yonub-töküb lələyimi;
düz tuturam, ürəyimi,
ayrılıqlar çəkir, məni;

dünyanın qəfil selləri,
yuyub apardı elləri;
payızın dəli yelləri,
yarpaq kimi bükür, məni;

bu nə qardı, bürəm-bürəm,
axı, nədən belə kürəm;
onsuzda çıxıb gedirəm,
ağla, hönkür-hönkür, məni.

# daha bir yolum qalmadı

daha, bir yolum qalmadı,
tanrıdan bir yol istədim;
dilim, dodağım təpidi,
danışmağa dil istədim;

sözü gözüyə-gözüyə,
baxdım, sınığa, əziyə;
sonra qoydum tərəziyə,
sözü mükəmməl istədim;

sinəmə ürək taxdılar,
çiynimə lələk taxdılar;
yaxama çiçək taxdılar,
mən, süsən-sünbül istədim;

yağış gəldi, sel olmadı,
dağlar uçdu, yol olmadı;
yer əkirdim, bel olmadı,
kotan qoşdum, vəl istədim;

danışmadım, gördüyümü,
söz – könlümün kür düyümü;
tanrı verdi, verdiyini,
mən, daha gözəl istədim.

# ömrün yüz ili gedib

axı, ürək neyləsin,
ürək üzülüb, gedib;
həsrətim çox inciyib,
ağzı büzülü gedib;

dərd var, ilmə-ilmədi;
sökülüb tökülmədi;
mən saxlaya bilmədim,
ruhum küsülü gedib;

qələm çalan kim idi,
mürəkkəbi kəm idi;
ömür-gün su kimiydi,
axıb, süzülüb, gedib;

çoxdu, dərdin qırçını,
yorur  yolu, yolçunu;
çiynimdəki xurcunun,
ipi, qəzili gedib;

yol gedib yorulmuşam,
gün vurub, qaralmışam;
yatıb harda qalmışam,
ömrün yüz ili gedib.

# səni dəniz aparsın

bax, sular da oyanır,
yuxusu çin olunca;
səni dəniz aparsın,
üzüm gəlim, dalınca;

göydə bulud gül açır,
külək əsir, dil açır;
sahilə bir qız qaçır,
ayaqları yalınca;

nə çiçəkdi, nə güldü,
göydə bulud büküldü;
gecə yuxum çəkildi,
baş qoymadım, balınca;

ürəyim dağı çəkir,
doğma torpağı çəkir;
ağaclar ağrı çəkir,
yarpaqları solunca;

yuxumu gül eliyim,
sevdamı kül eliyim;
qayıdır, dəliliyim,
ağlım səndə qalınca.

## dünya, nə zalım dünyadı

gözlərin çəkir könlümü,
gör, ürəyim nə haydadı;
bilirəm, yandırıb yaxmaq,
gözəllərdə bir qaydadı;

mən bir uzaq köy üzündən,
göy üzünün o üzündən;
ruhum gəlib göy üzündən,
ruhum, göy üzü boydadı;

ürəyim səssiz danışdı,
üz-gözün mənə tanışdı;
könlüm od tutdu, alışdı,
buz kimi qanım oynadı;

ağrım-acım ləçək-ləçək,
çağır, ürəyim güləcək;
gəl, əlini saçıma çək,
gör, ağ saçım nə saydadı;

nə qış, nə bahar olmadı,
dilim yandı, qar olmadı;
səndən mənə yar olmadı,
dünya, nə zalım dünyadı.

# mən bir azca gecikdim

mən bir azca gecikdim,
ölçü, ölçüldü, daha;
nə sap, nə qumaş qaldı;
hər şey biçildi, daha;

hanı, dərdin kilidi,
alın yazım silindi;
dünya yenə bölündü,
dünya kiçildi, daha;

kimdi, məni oyadan,
yatmamışam, ay adam;
atdılar, bir qayadan,
sınıb, büküldüm, daha;

tum atıb tumladılar,
işi tamamladılar;
dünyanı şumladılar,
dərdlər əkildi, daha;

nə yedim, nə içdim, mən,
bura necə keçdim, mən;
güllələndim, içimdən,
içimdən öldüm, daha.

# mən bir qərib, adam

mən bir qərib, qərib adam,
adım, soyuq kəlmə kimi;
üzümə soyuq baxmayın,
göy üzündən gəlmə kimi;

mən dəli, hamı ağıllı,
bitir dünyanın nağılı;
içimdə min dərd yığılıb,
çuxur salıb, gölmə kimi;

nə yazıbsa, fələk yazıb,
yazıb, lələk-lələk yazıb;
yolumda bir günah azıb,
yandırır külümə kimi;

yaşım min illər o yana,
daş atdım, ruhum oyana;
yaddaşım daşdan boylana,
naxışlana, ilmə kimi;

ömür bir sınıq araba,
dəyməz, bir badə şəraba;
dünya qalıbdı xaraba,
içindən çölünə kimi.

## mən heç, sevmədim, payızı

üzündən qəriblik yağır,
payız, həsrətdi, qubardı;
mən heç, sevmədim, payızı,
anamı payız apardı;

payız apardı, anamı,
qatıb çiçəyə, yarpağa;
unudub ağrı-acını,
anam, gül oldu, torpağa;

mən heç, sevmədim, payızı,
sevmədim, ağlım kəsəndən;
anam da, sevdi  payızı
mən, o payızdan küsəndən;

mən heç sevmədim payızı,
payızda üzüm gülməzdi;
o payız, payız olmasa,
bəlkə də, anam ölməzdi;

indi, payızın adını,
saçlarım qışa yazdırır;
hardasa, bir uzaq yerdə,
ruhum, bir payız azdırır.

# bu adı kim qoyub mənə

bu adı kim qoyub, mənə
çaşdırır, öz adım, məni;
alışdırır, misra-misra,
şeirim, bayatım, məni;

yazım yanıb, qışım yanıb;
yurd yerində daşım yanıb;
alışıb, yaddaşım yanıb,
bir tonqala çatın, məni;

bu həsrəti nuş eləyin,
fələyə qarğış eləyin;
bir ağaca tuş eləyin,
bir daşa oxşadın, məni;

yel əsir, gülün üstündən,
sovrulur, külüm üstümdən;
dünya kor olur, tüstümdən,
yandırır, öz odum, məni;

hanı, dağların ətiri,
dərd gətirir, hər sətirim;
bir xoşca xəbər gətirin,
kiridin, ovudun məni;

payızın sarısı tutub,
canımın ağrısı tutub,
min ilin yuxusu tutub,
çağırın, oyadın məni.

## nə çox gecikdi, bahar

biz, bu yolu başladıq,
gəl, gedək, axıracan;
mən səni də, özümlə,
bir yana çıxardacam;

nə çox gecikdi, bahar,
ürəyim qubar-qubar;
saçlarıma düşən qar,
bilmirəm, yağır haçan;

axır, külüm sulara,
yetmir əlim, sulara;
dönüb dəli sulara,
uzaqlara axacam;

hanı, dərdin axırı,
çiyinlərim yagırdı;
buludları çağırıb,
göy üzünə yığacam;

dərd acı bir mey təki,
sızıldayır, ney təki;
var gücümlə göydəki,
tanrıya bağıracam;

dağlar mürgülü qalır,
həsrət bükülü qalır;
od yanır, külü qalır,
su axır, çuxuracan;

buludlar  düşüb bəndə,
ruh qalmır ki, bədəndə;
mən, ölməyə gedəndə,
səni də, çağıracam.

# ruhum, quş kimi gəlib

belə, hara gedirsən,
sən, uşuna-uçuna;
bax, əlimi uzatsam,
Ay düşəcək, ovcuma;

payız tökür, varını,
yarpaq-yarpaq sarını;
daha, qışın qarını,
dərd eləmə, saçına;

indi, kimin yurdu var,
nə daş qalıb, nə divar;
hərənin öz dərdi var,
sən, hamıya acıma;

həsrət, qış kimi gəlib,
yuxum, daş kimi gəlib;
ruhum, quş kimi gəlib,
perikdirib uçurma;

dərdi, qəmi at, gedək,
hər şeyi unut, gedək;
gəl, əlimdən tut, gedək,
dünyanın o ucuna.

## üzümə soyuq baxma

yenə, payız qayıdıb,
sərin küləklər əsir;
üzümə soyuq baxma,
ürəyim səndən küsür;

sular uyuşub gedir,
yollar qovuşub gedir;
bir dərd sovuşub gedir,
biri qapımı kəsir;

mən hara çıxım, gedim,
buludam, yağım gedim;
yarpaqlar yetim-yetim,
yarpaqlar, yesir-yesir;

hanı, yaşıl eynəyim,
sap-sarıdı, köynəyim;
içimi dərd çeynəyir,
könlümü həsrət əzir;

dərdi necə əyim, mən,
əyib, heçə düyüm, mən;
tuturam ətəyindən,
fələk ağzını büzür;

günahım nədi, sonam,
yarı dərd, yarı canam;
mən burda yarıcanam,
ruhum hara tələsir.

# yarpaqlarla görüş

yenə, burda tənhayam,
ağaclarla baş-başa;
gəlmişəm ki, bir az da,
yarpaqlarla danışam;

bax, çırpınır ürəyim,
bir az da, sən qulaq as;
məni ovuda bilmir,
nə qış, payız, nə də, yaz;

astaca külək də var,
yarpaqlar xışıl-xışıl;
dilim-ağzım quruyub,
tək ürəyim danışır;

günlər payıza gedir,
yarpaqlar sarı-sarı;
misra-misra sökülür,
ürəyimin qubarı;

bir yarpaq da üzülür,
yerə düşür, indicə;
gəldim, sizə deyəm ki,
payız gəlir, bu gecə.

## gözlərimdə su qalıb

gülüm, bizim sevdamız,
bir şirincə yuxudu;
gözlərinin rəngindən,
bir kimsənin yoxudu;

nə cığalsan, nə kürsən,
məni oda bükürsən;
bilirəm, nə çəkirsən,
dərdin mənə yaxındı;

silib dərdin tozunu,
səpdim, yollar uzunu;
alnımdakı yazını,
kim tələsik oxudu;

ocaq söndü, köz atdım,
ulduzlara söz atdım;
əllərimi uzatdım,
göy üzünə toxundu;

sözü külək elədim,
ələk-vələk elədim;
bir ağ lələk elədim,
saçlarına toxudum;

dərdin sarısı qalıb,
ömrün yarısı qalıb;
gözlərimdə su qalıb,
açım, hara axıdım.

# MÜNDƏRİCAT

**Ön söz.** göy üzünün yaddaşı...............................................3

**şeirlər**

anam ........................................................................9
adam kədərdən yıxılır ...................................................10
adımı unut .................................................................11
ağlama, könlüm qırılar ...................................................12
alnımın yazı yerində.......................................................13
ayrılıq bir dəli sudu .......................................................15
belə bir ömür yaşadıq.....................................................16
bir qara yuxu içində ......................................................17
bir az ürəyimdə qal........................................................18
hörüyünü qoşa bağla .....................................................19
deyən Tanrı da oyaqdı ....................................................20
dünyanın yorğun adamı...................................................21
əllərim od tutub yanır.....................................................22
eşqin dərgahına qul olan könül ........................................23
etüdlər .......................................................................24
fələyin sınıq möhürü ......................................................26
gəl gizlicə çıxıb gedək ...................................................27
güzgüdə yaşayan adam ...................................................28
hələ nə gedib ömürdən ...................................................29
həsrətin uzaq yeri .........................................................30
könlüm ......................................................................32

kim yatıbdı, kim oyaq ........................................................33
könül qapılarım açıq qalıbdı ................................................34
könül, çox da ah eyləmə.....................................................35
hər gün ömür təzələnir .......................................................36
könül, mən səndən savayı ..................................................37
gəl, mən bir tək səni sevim ................................................38
mənə bir yalan danış ..........................................................39
məni dolandır, başına .........................................................40
ömür yoldu.........................................................................41
yağışlı yuxu........................................................................42
günü-günə calıyıram ...........................................................43
dünya bizim yuxumuzdu......................................................45
gedək, bir ömür yaşıyaq......................................................46
göy üzündən gələn var ........................................................48
göy üzünə salam olsun .......................................................49
hələ, bu dərdin biridi...........................................................50
mən adda adam yoxdu ........................................................51
mənim ruhum burda deyil....................................................52
nə var, sözdən yuxarı .........................................................53
o buluda çox oxşama .........................................................54
ömür axan su kimidi ...........................................................55
saçlarıma bir səhər çək.......................................................56
salam, nə vaxt qayıtdın .......................................................57
sevdim, uzaq bir dənizi .......................................................58

soruşma, dərdin yaşını ........................................................59
yarpaq harda bükülür ........................................................60
gedim, harda tapınım ........................................................61
unutduğum göy üzü........................................................62
ürəyim daha yoxdu........................................................63
ürəyim, bir kövrək simdi, gözəlim........................................64
ürəyimə yaxın dur ........................................................66
uzaq dənizdə batdım ........................................................67
dünya bir yarpaq boydadı........................................................68
alnımı kim qaralıyıb........................................................69
bir acı sözdən yıxıldım........................................................70
barışa bilmirəm, daha........................................................72
saçlarına sığal çək ........................................................73
şairə qız verməzlər ........................................................74
yenə, qulağım səsdədi ........................................................75
səni unutmaq çətin ........................................................76
daha yandırma, şamları ........................................................77
sıxdı, uzaqlar məni ........................................................78
mənə bir xoş xəbər gətir........................................................79
tanrı kimə vaxt verib ........................................................80
günah məni axtarır ........................................................81
ürəyimə məktub ........................................................82
ulduzların gözü var ........................................................83
şəklimi divardan as ........................................................84

daha, qul olduğum bəsdi ....................85
bura dərdin yeridi ....................86
mən bir uzaq yol üstə ....................87
Norveç dağlarında ....................88
quşların son baharı ....................90
aramızda hicran gəzir ....................91
sonuncu dünya ....................92
nə var, yoxdan o yana ....................93
daha, yolumu gözləmə ....................94
ağlımı kim aldı, deyim ....................96
yenə, kimsə gələcək ....................97
yuxu tökülür, gözümdən ....................98
yolun bir ucu qapıdı ....................99
yenə yay gedər payıza .................... 101
yenə yağmır, eşələnir .................... 102
yenə payız qayıtdı .................... 103
dərd .................... 104
yaman darıxır, ürəyim .................... 105
ana məzarı .................... 106
ballada .................... 107
baxıram gündüzün qürub çağına .................... 109
bilmirəm, hardan gəlmişəm .................... 110
bir ömür də istə, şair .................... 111
bir azdan yola çıxıram .................... 112

bircə, xətirimə dəymə........................................................ 113
bu bulaq nədən quruyub........................................................ 114
o yarpağı sər üstümə ........................................................ 115
bu dünyada sən olmasan ........................................................ 116
bu qışdan çıxa bilmirəm........................................................ 117
bulud gəldi, yağmadı heç ........................................................ 118
bura mənə yad gəlir........................................................ 119
canımı üzmüşəm daha........................................................ 120
çiçəklər yetim qalıbdı........................................................ 121
dağlara məktub........................................................ 122
daha bir yolum qalmadı ........................................................ 123
ömrün yüz ili gedib ........................................................ 124
səni dəniz aparsın........................................................ 125
dünya, nə zalım dünyadı ........................................................ 126
mən bir azca gecikdim ........................................................ 127
mən bir qərib, adam ........................................................ 128
mən heç, sevmədim, payızı........................................................ 129
bu adı kim qoyub mənə........................................................ 130
nə çox gecikdi, bahar ........................................................ 131
ruhum, quş kimi gəlib ........................................................ 133
üzümə soyuq baxma........................................................ 134
yarpaqlarla görüş........................................................ 136
gözlərimdə su qalıb ........................................................ 137

Müəlliflə əlaqə:
e-mail: nazim_ahmedli@yahoo.com
Mob: 050 212 40 65